Günəş Şərqdən doğur!
❒ № 118 (5399), 2021-ci il
Qiymıəti 40 qəpik
# ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az 7 iyul 2021-ci il (çərşənbə)



## Ağdam istiqamətində bölmələrimiz atəşə tutulub
Azərbaycan Ordusunun hərbi qulluqçusu yaralanıb
(Səh.8)



## ÜST rəhbəri xəbərdarlıq edib
"Koronavirus pandemiyasının çox təhlükəli mərhələsi çatıb"

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adanom Qebreyesus koronavirus pandemiyasının çox təhlükəli mərhələsinin çatdığını bildirib.**

"RİA Novosti" xəbər verir ki, baş direktor hazırda virusla mübarizə üçün köməkçi vasitələrə, ilk növbədə peyvəndlərə sahib olan dövlətlərin məhdudiyyətləri yumşaltdığını deyib.
(səh.7)

## Müdafiə Nazirliyi açıqladı


160 min medaldan 13,3 mini təqdim olunub
(səh.3)

# Ermənilərin ekoloji terroru səngiməyib


## "Azərbaycana ziyan vuranlardan biri də Almaniyanın "Cronimet" şirkətidir"
(səh.5)

# Gələcəkdə ən çox qazanan politoloq və siyasətçilər olacaq

(səh.8)

## Prezident sərəncamlar imzalayıb
Ermənistanın vurduğu zərərlərə görə dövlət qurumlarına 42 milyon manat ayrılıb
(səh.2)

## İran sərhədlərin qorunmasında bilərəkdən fəallıq göstərmir
"Azərbaycan tərəfə narkotika keçirənlərə, qaçaqmalçılara göz yumur"
(səh.3)

## Son sutkada 78 nəfər COVID-19-a yoluxub
47 nəfər sağalıb, ölüm qeydə alınmayıb
(səh.7)

## Mübariz Mənsimov bacarıqlı iş adamıdır
O, qısa zamanda əvvəlki reputasiyasını və iş dövriyyəsini bərpa edəcək
(səh.9)

# Prezident sərəncamlar imzalayıb

## Ermənistanın vurduğu zərərlərə görə dövlət qurumlarına 42 milyon manat ayrılıb



Prezident İlham Əliyev Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində kənd təsərrüfatına, mülki əhalinin əmlakına, sahibkarlıq subyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı dörd quruma maliyyə vəsaiti ayrılması ilə bağlı sərəncamlar imzalayıb.

2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində kənd təsərrüfatına (kənd təsərrüfatı məhsulları, texnika, əkin sahələri, mal-qara və s.) dəymiş ziyanın aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə 1 400 000 (bir milyon dörd yüz min) manat vəsait ayrılır.

Dövlət başçısının imzaladığı digər sərəncamla 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə və dövlətə məxsus nəqliyyat vasitələrinə, sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə 5 400 000 (beş milyon dörd yüz min) manat vəsait ayrılır.

İlham Əliyevin imzaladığı digər sərəncamla 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhalinin əmlakına dəymiş ziyanla bağlı maddi yardım ödənilməsinə Prezidentin müvafiq sərəncamına görə, 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə 5 200 000 (beş milyon iki yüz min) manat vəsait ayrılır.

2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində dəymiş ziyanın aradan qaldırılması ilə bağlı zərər vurulmuş obyektlərin bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsinin təmin edilməsi üçün Prezidentin müvafiq sərəncamı ilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə 30 (otuz) milyon manat vəsait ayrılır.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə bu sərəncamların 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə həmin sərəncamlardan irəli gələn məsələləri həll etmək həvalə olunub.

*Qeyd edək ki, ümumilikdə dörd quruma 42 milyon manat vəsait ayrılıb.*



## Prezident İlham Əliyev Vladimir Putinə başsağlığı verib

**Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə başsağlığı verib.**

Başsağlığı mətnində deyilir:

"Hörmətli Vladimir Vladimiroviç.

Kamçatkada An-26 təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan təlefatı barədə xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına səmimi qəlbdən başsağlığı verirəm".

## Zelenski Aİ Şurasının Prezidenti ilə görüşüb



**Ukrayna Prezidenti Vladimir Zelenski Litvada Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişellə görüşüb.**

APA-nın xəbərinə görə, bu barədə Litva Prezidenti Gitanas Nauseda "Twitter"də bildirib.

"Bu gün Vilnüsdə Vladimir Zelenski və Şarl Mişelin iştirakı ilə üçtərəfli görüş keçirildi. Şərq Tərəfdaşlığını, Ukraynadakı islahatları, Krımı və enerji təhlükəsizliyini müzakirə etdik. Litva Ukraynanın Avropaya inteqrasiya ilə bağlı istəklərinin sadiq tərəfdarıdır", - deyə Litva Prezidenti qeyd edib.

## Rusiyadan Azərbaycana 200 min doza "Sputnik V" vaksinin göndərilib



**Rusiyadan Azərbaycana "Sputnik V" koronavirus vaksininin artıq 200 min dozası gətirilib.**

Trend-in məlumatına görə, bunu Səhiyyə nazirinin birinci müavini, səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra edən Teymur Musayev deyib.

O bildirib ki, ilk partiya 200 min dozadan ibarətdir.

Nazir müavini əlavə edib ki, iki ölkə arasında münasibətlər dərin köklərə malikdir.

## Paşinyan Putinlə görüşə gedib



**Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan Rusiyaya işgüzar səfər edəcək.**

İyulun 7-də baş tutacaq səfər çərçivəsində Nikol Paşinyan Moskvada Rusiya Prezidenti Vladimir Putinlə görüşəcək.

Tərəflər Rusiya-Ermənistan arasında strateji əməkdaşlığı, 2020-ci ilin noyabrın 9-da və 2021-ci ilin yanvarın 11-də imzalanmış üçtərəfli bəyanatın bəndlərinin reallaşdırılması, regionda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası məsələlərini müzakirə edəcəklər.

## ABŞ və Ukraynadakı azərbaycanlılar Oxçuçayla bağlı "Greenpeace" təşkilatına müraciət ediblər

**Oxçuçaya qarşı törədilən ekoloji terrora etiraz əlaməti olaraq Amerika Azərbaycanlılarının Koordinasiya Şurası (ACCA) və Ukrayna Azərbaycanlıları Radası (UAR) nüfuzlu "Greenpeace" beynəlxalq təşkilatına müraciət edib.**




Diasporla İş üzrə Dövlət Komitəsindən "Şərq"ə bildirilib ki, bəyanatlarda Azərbaycanın işğaldan azad olunmuş Zəngilan rayonu ərazisindən keçən və Araz çayına tökülən Oxçuçayın Ermənistan və Almaniya şirkətləri tərəfindən zəhərli tullantılarla çirkləndirildiyinə diqqət cəlb edilib. Bu səbəbdən ekosistemə və bioresurslara ciddi ziyan vurulduğu, Oxçuçayın töküldüyü Araz çayının Azərbaycanda əkin sahələrinin suvarılması üçün su ehtiyatlarında həlledici rol oynadığı və Ermənistanın dövlət agentliklərinin də sözügedən ekoloji cinayəti etiraf etdikləri nəzərə çatdırılıb.

Qeyd edilib ki, bütün bunlar həm də insan sağlamlığına böyük təhlükə yaradır, amma Ermənistan 1992-ci ildə imzalanmış Helsinki konvensiyasına qoşulmur və öhdəliklərindən yayınır.

ACCA və UAR ətraf mühitin qorunmasında böyük rol oynayan "Greepeace" təşkilatını baş verənlərə göz yummamağa, Oxçuçaydakı dəhşətli fəlakətin qarşısının alınması məqsədilə dərhal hərəkətə keçməyə çağırış edib.

Bəyanatları Azərbaycan-Amerika İnteqrasiya Mərkəzinin rəhbəri Samir Novruzov, Azərbaycan-Nyu York Assosiasiyasının rəhbəri Ercan Yerdələnli, Amerika Orta Qərb ştatları üzrə Azərbaycan Mərkəzinin rəhbəri Fərid Məmmədov, Amerika- Azərbaycan Qadınlar Assosiasiyasının rəhbəri Münəvvər Vahabova, Nyu York Mədəniyyət Mərkəzinin rəhbəri Telman Cəlil, Yuta-Azərbaycan İcması nümayəndəsi Əsmər Qarayeva, Florida-Azərbaycan Cəmiyyətininn rəhbəri Esmira Bayramova, Azərbaycan Dostluq Təşkilatının rəhbəri Adika İqbal, Minnesota-Azərbaycan Assosiasiyasının rəhbəri Günel Rallis, Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin rəhbəri Nərgiz Əliyarlı, Şimali Amerika Gənclər təşkilatının rəhbəri Aytac Qasımova və UAR baş katibi Cəlal Hüseynov imzalayıblar.

**İsmayıl**

# BMT missiyasının razılığı mühüm hadisədir

## İnsanların işğaldan azad olunmuş ərazilərə köçürülməsi zamanı beynəlxalq dəstəyə ehtiyac var



Azərbaycan tərəfi və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı arasında aparılmış müzakirələr nəticə verib. Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva deyib. XİN rəsmisi bəyan edib ki, Azərbaycan beynəlxalq hüquq prinsipləri əsasında BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının missiyasını qəbul etməyə hazırdır:

"Azərbaycan dövlət suverenliyi prinsipini rəhbər tutaraq beynəlxalq missiyaları öz ərazisində qəbul etməyə hazırdır. Bu xüsusda, missiyanın azad olunmuş ərazilərimizdə həyata keçirilməsi ilə bağlı təşkilatdan konkret məlumatın təqdim edilməsini gözləyirik". Xatırladaq ki, iyunun 28-də Moskvada Rusiyanın Xarici işlər naziri Sergey Lavrov və BMT-nin Qaçqınlar üzrə Ali Komissarı Filippo Qrandi arasında görüş keçirilib. Görüşdə Qarabağ və ətraf rayonlara qaçqın və məcburi köçkünlərin qayıtması məsələsi müzakirə olunub. 10 noyabr tarixli bəyanata müvafiq olaraq qaçqınların və məcburi köçkünlərin Xankəndi və ətraf rayonlara qayıtması məsələsinə baxılıb.

**Humanitar Tədqiqatlar İctimai Birliyinin sədri, hüquq müdafiəçisi Əvəz Həsənov bildirib ki, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının işğaldan azad olunmuş ərazilərdə missiya həyata keçirməyə razılıq verməsi çox mühüm addımdır:** "Çünki Azərbaycanın bərpa və yenidənqurma prosesindən sonra insanların həmin ərazilərə köçürülməsi zamanı beynəlxalq dəstəyə ehtiyac var. Gənclər bilməz, 1996-cı ildə "CiSCONF" adlı bir proses var idi. O zaman çox çalışırdıq ki, beynəlxalq təşkilatlar neftdən gələn gəlirləri əldə bayraq tutaraq azərbaycanlı qaçqın və məcburi köçkünlər ilə işi təkcə hökumətin üzərinə qoymasınlar. Hətta bu proqram çərçivəsində 2000-ci ildə Praqada təşkil edilən konfransa dövlətin 3 nəfər yüksək vəzifəli şəxslərinin də səfərini təşkil etmişdik. Məqsədimiz o idi ki, Azərbaycandakı vəziyyəti çatdırsınlar. Lakin 2000-ci ildə Bakıda "Humanitar yardımdan İnkişafa doğru" adlı bir konfrans oldu. Ondan sonra çoxlu sayda fövqəladə hallar üçün nəzərdə tutulan layihələr dayandırıldı".

**İsmayıl Qocayev**

## Müdafiə Nazirliyi açıqladı

### 160 min medaldan 13,3 mini təqdim olunub



**2020-ci ilin dekabr ayında və 2021-ci ilin iyun ayında elan olunmuş sərəncamlarla verilmiş medallar artıq hazırlanır və onların aidiyyəti üzrə təqdim olunması prosesinə başlanılıb.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, bu günədək Azərbaycan Ordusu üzrə 160 000 medaldan yalnız 13 300 medal aidiyyəti üzrə təqdim olunub.

"Təltif olunanların sayının çox olması səbəbindən medalların hazırlanma prosesi müəyyən vaxt aparacaq", - məlumatda vurğulanıb.

## Azərbaycanda iki qanun qüvvədən düşəcək

**Azərbaycanda "Media haqqında" yeni qanun layihəsi qəbul edildikdən sonra iki qanun qüvvədən düşəcək.**

"Report"un əldə etdiyi məlumata görə, bunlar - hazırda qüvvədə olan "Televiziya və radio yayımı haqqında" və "Kütləvi informasiya vasitələri haqqında" qanunlardır.

*Məlumatı Medianın İnkişafı Agentliyindən (MEDİA) "Report"a təsdiqləyiblər.*



## Moskva təlaş içindədir

### ABŞ, Polşa, Litva və Ukrayna hərbçiləri təlimlərə hazırlaşır

**ABŞ, Polşa, Litva və Ukryana hərbçilərinin iştirakı ilə iyulun 17-dən 30-dək "Üç Arzu-2021" adlı təlim keçiriləcək.**

Bu barədə Ukrayna Silahlı Qüvvələri Baş Qərargahı məlumat yayıb. Təlimlər 1 200 hərbçi, 200-dən artıq hərbi texnikanın iştirakı ilə Lvov vilayətinin Yavorov poliqonunda baş tutacaq.

**Millət vəkili Elman Məmmədov bu təlimlər barədə "Şərq"ə danışıb:** "Adətən belə hazırlıqlar döyüş qabiliyyətini artırmaq məqsədi daşıyır. İştirakçılar təlimin kimsəyə qarşı olmadığını deyirlər. Qarşı tərəf isə - bu, indiki halda Rusiyadır - təlimləri öz təhlükəsizliyinə təhdid kimi qiymətləndirir.

Hərçənd indiyədək kimsə Rusiyaya hücum etməyib, əksinə, özü separatçılıqla məşğuldur".

**E.Məmmədovun fikrincə, rəsmi Moskva təlaşlıdır:** "Kreml narahatdır və adekvat tədbirlər görür. Çünki yaxşı bilir ki, özünün başqa ölkələrə etdiyi indi başına gələ bilər. Necə deyərlər, nə tökərsən aşına, o da çıxar qaşığına".

**Kənan**

# İran sərhədlərin qorunmasında bilərəkdən fəallıq göstərmir



## "Azərbaycan tərəfə narkotika keçirənlərə, qaçaqmalçılara göz yumur"

## "Bu yanaşma kriminal qrupların xeyrinə işləyir"

İyul ayının 5-də Cəlilabad rayonunun Sərxanlı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində 5 nəfər naməlum şəxs İrandan Azərbaycana keçməyə cəhd edib. Lakin sərhəd pozucuları sərhəd naryadı tərəfindən aşkar olunub. Müşahidə nəticəsində cinayətkarların silah və gecə görmə cihazları ilə təchiz olunduğu, üzərlərində narkotik vasitə olması müəyyən edilib.

Sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılıb və xidməti ərazi qapadılıb. "Dayan" əmrinin verilməsinə və havaya xəbərdarlıq atəşi açılmasına baxmayaraq, sərhəd pozucuları əmrə tabe olmayaraq silahlı müqavimət göstərib və avtomat silahdan atəş açaraq sərhədçilərin həyatına qəsd ediblər. Sərhəd pozucularından biri zərərsizləşdirilib, digərləri isə gecənin qaranlığından istifadə edərək İran tərəfə qaçıblar. Əraziyə baxış zamanı sərhəd pozucularının qanunsuz yolla ölkə ərazisinə keçirdikləri çantada çəkisi 6 min 895 qram narkotik vasitəyə bənzər maddələr aşkarlanıb. Bu barədə İran tərəfi dərhal məlumatlandırılıb. Hadisə yerində Azərbaycan və İran sərhəd nümayəndələrinin görüşü keçirilib. Demək olar ki, ay ərzində bir neçə dəfə bu cür halların şahidi oluruq. Hətta bir çox hallarda ölümlə, yaxud yaralanma ilə nəticələnən insidentlər baş verir. Sərhəd pozanların çoxu silahlı olur və sərhədçilərimizə atəş açırlar. Sanki İran tərəfində sərhəd nəzarətsiz buraxılıb. Ən əsası da odur ki, rəsmi Bakının müraciətlərinə məhəl qoyulmur.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə açıqlamasında bəyan edib ki, Azərbaycan ordusunun Qarabağda əldə etdiyi uğur bölgədə bir çox məsələlərə aydınlıq gətirdi.** Partiya təmsilçisinin sözlərinə görə, torpaqlarımızın işğalda qaldığı müddətdə İranla sərhədlərimizdə ciddi boşluq yaranmışdı: "İşğal altında olan ərazilərimizə nəzarət etmək imkanından məhrum olduğumuz üçün ərazi qaçaqmalçılıq, narkotik dövriyyəsi üçün bir növ tranzit yolu kimi istifadə edilirdi. Hətta faktlar var ki, İran vətəndaşları Zəngilanda, Cəbrayıl və Füzulidə işğalçılardan Azərbaycan torpaqlarını icarəyə götürərək narkotika istehsalı ilə məşğul olurdular. Nəinki işğal dövründə, hətta 44 günlük müharibə şəraitində belə İran tərəfindən sərhədlərimizin pozulması halları davam edirdi. Düşmən tərəfə hərbi və iqtisadi yardımlar dayandırılmırdı. Artıq ərazilərimizi işğaldan azad etmişik və sərhədlərimizə tam nəzarət etmək iqtidarındayıq. Lakin İran tərəfi sərhədlərin qorunmasında bilərəkdən fəallıq etmir. Azərbaycan tərəfə narkotika keçirənlərə, qaçaqmalçılara göz yumur. Bu yanaşma kriminal qrupların xeyrinə işləyir. Belə çıxır ki, İran kriminal qrupların sərhədlərimizi maneəsiz keçməsinə bilərəkdən şərait yaradır. Əgər belə deyilsə, o zaman Azərbaycanla mütəmadi sərhəd pozulmaları faktları Ermənistanla sərhəd bölgələrdə niyə baş vermir?".

V.Əfəndiyevin qənaətincə, İranın provakasiyaları həm də siyasi xarakter daşıyır: "İran Azərbaycanın çoxvektorlu siyasətindən və xüsusilə Türkiyənin yanımızda dayanmasından çox narahatdır. Ona görə də varlığını sübut etmək və ikili əlaqələrə əngəl ola biləcəyini diqqətə çatdırmaq üçün sərhədlərimizdə gərginliyi saxlamağa çalışır".

**İsmayıl Qocayev**

# Dost ölkələr təhlükəsizlik məsələlərində biri-birinin yanında olacaq



## Azərbaycan, Türkmənistan və Türkiyə arasında siyasi və iqtisadi dialoqlar davam edəcək

Türkmənistanın Xarici işlər naziri Rəşid Meredov azərbaycanlı həmkarı Ceyhun Bayramovla ən yüksək siyasi səviyyədə əldə edilmiş razılaşmaların icrasını müzakirə edib. Diplomatlar Azərbaycan, Türkmənistan və Türkiyə prezidentlərinin bu il keçirilməsi planlaşdırılan üçtərəfli görüşünün əhəmiyyətini vurğulayıblar.

R.Meredov və Türkiyənin XİN rəhbəri Mövlud Çavuşoğlu arasında baş tutmuş telefon danışığı zamanı da Azərbaycan, Türkmənistan və Türkiyə dövlət başçılarının görüşünün vacibliyi qeyd olunub. Bundan başqa, nazirlər Türkiyə prezidentinin Türkmənistana səfərinin hazırlıq məsələlərinə də diqqət ayırıblar.

Qeyd edək ki, Azərbaycan, Türkmənistan və Türkiyə prezidentlərinin görüşü zamanı bir sıra razılaşmaların imzalanacağı gözlənilir.

**Görüşün əhəmiyyətini "Şərq"ə şərh edən politoloq İlqar Vəlizadə bildirib ki, sözügedən üçtərəfli görüş formatı hələ 2008-2009-cu illərdən formalaşıb:** "Bir neçə dəfə XİN başçıları bu format çərçivəsində görüşüb. Vaxtilə prezidentlərin də görüşü baş tutub. Çox vacib fakt budur ki, hər üç ölkə türkdilli ölkələrin oğuz qrupuna aiddir. Bu bizi daha sıx birləşdirən amildir və humanitar münasibətlərin inkişafına təkan verir. İndiki geosiyasi reallıqları nəzərə alsaq, üçtərəfli münasibətlərin digər əsasını iqtisadi əlaqələr təşkil edir. Birgə layihələrin həyata keçirilməsi davamlı müzakirə olunur. Xüsusilə də Türkmənistan qazı Azərbaycan vasitəsilə Türkiyəyə, oradan da Avropa bazarlarına çatdırılır. Çox güman ki, bu məqam müzakirə olunacaq və konkret qərarlar qəbul ediləcək. İlin əvvəlində "Dostluq yatağı" ilə bağlı qərar imzalanmışdı və bu yataq demək olar ki, Azərbaycanla Türkmənistanın birgə işi idi. Üçtərəfli münasibətlər imkan verir ki, bu layihə həyata keçirilsin".

*Politoloqun fikrincə, görüş zamanı siyasi dialoqların da aparılacağı gözlənilir:* "Belə danışıqlarda ortaq maraqlar var. Həmin maraqların böyük hissəsi təhlükəsizliklə bağlıdır. Əlbəttə, hər üç ölkə müəyyən problemlərlə üzləşib. Türkiyədə PKK ölkə üçün müəyyən təhlükələr törədir. Bizdə Qarabağ müharibəsinin bitməsinə baxmayaraq, müəyyən təhdidlər qalıb. Türkmənistan üçün isə Əfqanıstanda gedən proseslər müəyyən təhlükə yaradıb. Hər üç ölkə başçısının görüşü zamanı belə mövzuları müzakirə etməsi istisna deyil".

**Yeganə Bayramova**

# Aİ Azərbaycanla əməkdaşlıqda maraqlıdır

## Post-müharibə dövrü bölgədə yeni reallıq yaratdı



**Avropa İttifaqının (Aİ) qonşuluq və genişlənmə üzrə komissarı Oliver Varhey 6-9 iyul tarixlərində Cənubi Qafqaz ölkələrinə səfər edəcək.**

Bu barədə "Eureporter" nəşri məlumat yayıb. O.Varhey Azərbaycanda Xarici işlər naziri Ceyhun Bayramov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Energetika naziri Pərviz Şahbazov və digər rəsmi şəxslərlə danışıqlar aparacaq. Avropa Komissarı bölgə üçün iqtisadi və investisiya planı təşəbbüsləri barədə danışacaq. O, bölgədəki üç ölkənin hər biri ilə ikitərəfli münasibətlərdəki əsas məqamları diqqətə çatdıracaq.

**Politoloq Tofiq Abbasov Aİ rəsmisinin bölgəyə səfərini "Şərq"ə şərh edib:** "Post-müharibə dövrü bölgədə yeni reallıq yaratdı. Bu, kimsəyə sirr deyil. Beynəlxalq təşkilatlar, o cümlədən Aİ yaxşı bilir ki, gələcək əməkdaşlıq üçün regiondakı sülh və sabitlik əsas şərtdir. Səfər də məhz bu məqsədlidir. Eyni zamanda Aİ üçün ən maraqlı dövlətin Azərbaycan olduğu şübhəsizdir. Bu qurum ölkəmizlə əməkdaşlıqda maraqlıdır".

**Kənan**

# Moskva ənənəvi siyasətindən əl çəkən deyil

## Rus hərbi kontingenti Ermənistandan çıxarılmayacaq



**Rusiyadakı erməniyönlü "Regnum" informasiya agentliyinin baş redaktoru, politoloq Modest Kolerov maraqlı açıqlama ilə çıxış edib. O deyib ki, Ermənistanda Rusiya hərbi bazalarına artıq heç bir ehtiyac qalmayıb.**

"Paşinyan hakimiyyətdə qaldı. Paşinyan ümid edir ki, kimsə Rusiyanı əvəzləyəcək və onun təhlükəsizliyinin və digər utopik fikirlərinin qarantı olacaq. Bu səbəbdən Gümrüdəki və Erebunidəki (İrəvan yaxınlığı - red.) Rusiya bazalarının çıxarılması yaxın gələcəkdə reallaşa bilər", - deyə ekspert qeyd edib.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Şərq"ə açıqlamasında Modest Kolerovun fikrinə münasibət bildirib:** "Düzdür, Rusiyanın Ermənistana marağı azalıb. Biz bunu müharibə dövründə də gördük. Şimal qonşumuz İrəvana gözlənilən dəstəyi vermədi. Lakin bu, o demək deyil ki, Moskva öz forpostundan əl çəkəcək. Rusiya təkcə Ermənistanda deyil, başqa ölkələrdə də eyni siyasəti tətbiq edir, hərbi bazalar saxlayır. Şimal qonşumuzun sözügedən qərar qəbul etməsi zəiflik olar".

E.Şahinoğlunun sözlərinə görə, Moskva tarix boyu davam edən diplomatiyasından imtina etməyəcək: "Əksinə, Ermənistan Rusiyadan hərbi bazaların sayının artırılmasını xahiş edir. Doğrudur, düşmən ölkədə indiki məqamda rus hərbi kontingentinin olması məntiqli deyil. Çünki Kreml, guya, sülh və sabitlikdə maraqlıdır, Azərbaycanla Türkiyəni özünə dost bilir. Fəqət, Moskvanın ənənəvi siyasəti hər kəsə məlumdur. Bu siyasət hərbi mexanizmlərə əsaslanır".

**Kənan**

# Ermənilіyin mahiyyəti dəyişən deyil

## Oxçuçayın zəhərlənməsində də eyni vəhşiliyin, vandalizmin şahidi oluruq

Bu ilin üç ayı ərzində aparılan monitorinqlərə görə, Zəngilan rayonundakı Oxçuçayda nikel, dəmir və mismolibdenin normadan dəfələrlə artıq olması aşkarlanıb. Bu da həmin çayda ağır metalların normadan artıq olmasına səbəb olur. Oxçuçayın vizual olaraq da çox çirklənməsi qeydə alınıb. Çay hövzəsində bioresusların, xüsusilə qiymətli növ olan farel balıqlarının kütləvi məhvi aşkarlanıb. Hazırda da çayın çirklənməsi davam edir.



Oxçuçayın çirkləndirilməsi, çay hövzəsinin flora və faunasının məhv edilməsi Azərbaycanda geniş rezonans və ictimai narazılıq doğurub. Təbii ki, mövcud durum ermənilərin növbəti ekoloji terrorundan xəbər verir. Soros şəbəkəsinin Azərbaycanda özəl maraqları, ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsi və xarici tərəfdaşlarının sayının artması, beynəlxalq əlaqələrinin genişlənməsi, Azərbaycanın öz tərəfdaşları ilə uğurlu enerji layihələrini reallaşdırması - bütün bunlar ekologiyamıza vurulan ziyanların əsas səbəblərindəndir.

**Mövzu barədə fikirlərini "Şərq"lə bölüşən millət vəkili Məlahət İbrahimqızı bildirib ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığı yalnız ərazi iddiaları ilə bitməyib:** "Uzun illər ərzində işğal altında olan torpaqlarımızda bir çox təbii resurs məhv olunub. Təbiətə, ətraf mühitə, ekologiyaya vurulan ziyan yalnız bir ölkəyə aid deyil, bütövlükdə qlobal məsələlərdən biridir. Çünki ətraf mühitin qorunması qlobal dəyərdir. Ermənistanın 30 illik işğalçılıq siyasətindən sonra Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımız azad edildi. Bütün dünya gördü ki, Ermənistanın təcavüzkarlığı yalnız Azərbaycan xalqına deyil, ekologiyaya qarşı olan təcavüzkarlıqdır. Müharibənin sonuna yaxın bəzi kəndlərimizdə Livandan, Suriyadan gətirilmiş ermənilər yerləşdirilmişdilər. Həmin ermənilər gördü ki, Azərbaycan Ordusu ərazi bütövlüyünü bərpa edir. Onlar torpaqlarımızı tərk edərkən şahid olduq ki, nəinki evləri, hətta təbiəti məhv etdilər, ağacları kəsdilər, meşələri qırdılar. Dünyada bundan dəhşətli vəhşilik və vandalizm yoxdur. Neçə illər ərzində Sərsəng su anbarına ən zəhərli tullantıları atırdılar. Oxçuçayda da eyni vəhşiliyin şahidi oluruq. Azərbaycan xalqı və bütün dünya Vətən müharibəsi dövründə ermənilərin faşizm mahiyyətini gördü. Ona görə də bununla bağlı beynəlxalq təşkilatlara müraciət etməliyik. Lakin belə təşkilatların da əksəriyyəti erməniпərəst mövqe sərgiləyirlər".

Xanım parlamentari vurğulayıb ki, Oxçuçayda erməni vandallarının törətdikləri ekoloji terror, flora-faunaya qarşı etdikləri təcavüzkarlıq onların mahiyyətini ortaya qoyur: "Təəssüf ki, beynəlxalq təşkilatlar da bu duruma reaksiya vermirlər. Amma heç bir şübhə yoxdur ki, Qarabağ dünyanın ən gözəl diyarına çevriləcək. Bunu Prezident İlham Əliyev də dəfələrlə vurğulayıb. 44 günlük müharibədə "dəmir yumruğumuz" ermənilərin başına elə dəydi ki, separatçı ölkəni səfalət bürüdü. Buna baxmayaraq, yenə də əllərindən gələni edib ürək bulandırırlar. Onlar həmin torpaqların bizə məxsus olduqlarını gözəl anlayırlar. Baş verənlərlə bağlı beynəlxalq təşkilatların susqunluğunu qınayırıq! Bütün dünyanın bəhrələndiyi ekoloji sistemə vurulan ziyanlar sərt şəkildə ifşa olunmalıdır".

**Yeganə Bayramova**

# Ermənilərin ekoloji terroru səngiməyib

## "Azərbaycana ziyan vuranlardan biri də Almaniyanın "Cronimet" şirkətidir"

**Son zamanlar müzakirə edilən mövzulardan biri də Oxçuçayın ekoloji terrora məruz qalmasıdır. Belə ki, çay başlanğıcını Zəngəzur silsiləsinin Qapıcıq dağından götürməklə Ermənistanın Qafan və Azərbaycanın Zəngilan ərazisindən keçir. Çay Ermənistan ərazisində Qafan və Qacaran dağ-mədən sənayesinin tullantıları ilə hədsiz dərəcədə çirkləndirilir. Oxçuçay əslində sənaye tullantılarını Ermənistanın bu bölgəsindən uzaqlaşdıran kollektor rolunu oynayır. Çayın suyu yararsız olduğu üçün burada heç bir canlı yaşamır.**



Xatırladaq ki, çay Arazın sol qoludur. Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi ekoloji terrorda xarici şirkətlərin, xüsusilə Qərb kompaniyalarının iştirakına dair çoxsaylı faktlar mövcuddur. Ermənistanın dağmədən şirkətlərinin fəaliyyəti Oxuçayda fəlakətli vəziyyət yaradıb və müəyyən olunub ki, bu prosesdə Almaniyanın "CRONIMET" Holding GmbH şirkəti yaxından iştirak edib. Azərbaycan mediasının Almaniya səfirliyinə müraciətinə səfirin cavabı məsələni ört-basdır etmək və diqqəti şirkətin üzərindən yayındırmaq məqsədi daşıyıb. Bu ölkənin Yaşıllar Partiyası isə ümumiyyətlə müraciətə saymazyana cavab verərək Azərbaycana ayırmaq üçün vaxtlarının olmadığınış bildirib. Halbuki, Almaniya mediası müxtəlif illərdə Azərbaycana qarşı Soros şəbəkəsi tərəfindən təşkil edilən qarayaxma kampaniyalarında fəal iştirak edib. Almaniyadan təşkil olunan kampaniyaların davamlı xarakter daşıması bu prosesdə Almaniya hökumətinin bilavasitə iştirak etdiyini göstərir. Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi ekoloji terrorda Almaniya şirkətinin iştirak faktı təsdiqini tapdıqdan sonra Almaniya hökuməti problemdən diqqəti yayındırmaq üçün ölkəmizə qarşı çirkin kampaniya təşkil edib. Heç şübhəsiz, bu həm də seçkilər ərəfəsində Almaniya hökumətinin ciddi ittihamlardan yaxa qurtarmaq cəhdidir. Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev deyib ki, Ermənistanın Oxçuçayı çirkləndirməsi ilə bağlı ekoloji məsələlərlə məşğul olan aidiyyəti beynəlxalq qurumlara etiraz bildirilib. Nazirin sözlərinə görə, nümayəndələr bölgəyə dəvət edilib: "Gəlib baxsınlar, hər şeyi gözləri ilə görsünlər. Bunu da ona görə etmişik ki, məsələnin ciddiliyini anlasınlar və reaksiya versinlər. Lakin hələ də heç bir reaksiya yoxdur". Nazir ümidvardır ki, Azərbaycanın qətiyyətli tələbləri sonda nəticə verəcək: "Əsas tələbimiz odur ki, orada olan çirkləndirmə dayandırılsın. Həmçinin orada illik müvafiq normal su ehtiyatlarımızın istifadəsinə imkan verilsin. Yəni əsas məqsədimiz budur".

Nazirliyin beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Emin Qarabağlı bildirib ki, Azərbaycanın yerüstü su ehtiyatlarının təxminən 70 faizi qonşu ölkələrdə formalaşıb, transsərhəd su axınları hesabınadır. Onun sözlərinə görə, transsərhəd çay olan Oxçuçay Ermənistan ərazisində daim kəskin çirklənməyə məruz qalır. Nazirlik rəsmisi bildirib ki, Qafan və Qacaran dağ-mədən sənayesinin tullantıları ilə hədsiz dərəcədə çirkləndirilən Oxçuçay, sanki sənaye tullantılarının kollektoru rolunu oynayır: "Bu sular təmizlənmədən birbaşa çaya axıdıldığı və çirklənmə səviyyəsi dəfələrlə normadan artıq olduğu üçün onun su ehtiyatlarının ölkə ərazisində istifadəsi yararsız hesab edilir. Oxçuçayın Cənubi Qafqazın ikinci böyük çayı olan Araz çayına töküldüyünü nəzərə alsaq, onun çirklənməsi Araz çayının su ehtiyatlarının keyfiyyətinə də birbaşa təsir göstərir. Araz çayı Kür çayının ən böyük sağ qolu olmaqla Ermənistanla digər transsərhəd çaydır və Azərbaycanın əkin sahələrinin suvarılmasında həlledici rol oynayır. Lakin çaydakı suyun keyfiyyətinin ciddi dəyişikliyi səbəbindən onun məişət və kənd təsərrüfatı ehtiyacları üçün istifadəsi son dərəcə mənfi təsirlərə yol aça bilər. Heç kəsə sirr deyil ki, çay suyunun ağır metal və duzlarla çirklənməyə məruz qalması, mədən və emal müəssisələrinin fəaliyyəti nəticəsində formalaşan və birbaşa çay hövzəsinə axıdılan tullantı suları hesabına baş verir. Ermənistanın ən böyük mədən müəssisələrindən birinin Sünik vilayətində, Oxçuçay çayının mənbəyində yerləşməsi onun bu mənbələr hesabına çirklənmə faktını təsdiq etməyə əsas verir. Ermənistandakı Qacaran mis-molibden zavodu və Qafan filiz emalı zavodu insan sağlamlığı üçün son dərəcə təhlükəlidir. Çirklənmiş suyun istifadəsi zərərli nəticələrə - mədə-bağırsaq traktının pozğunluqlarına, böyrəklərdə və sümük toxumasında dağıdıcı proseslərə, ürək-damar, sinir sistemlərinin pozulması problemlərinə yol aça bilir". E.Qaradağlı vurğulayıb ki, ekoloqlar işğaldan azad edilən Zəngilan rayonu ərazisindən axan yerli çaylarda monitorinqlər aparıb: "Oxçuçaydan bu ilin yanvar-iyun aylarında götürülən su nümunələrində yüksək miqdarda ağır metal, xüsusən mis, molibden, manqan, dəmir, sink və xrom aşkar edilib. Çayların böyük bir hissəsinin Azərbaycan ərazisinə axdığı Ermənistan hələ də Transsərhəd Su hövzələrinə dair Helsinki Konvensiyasına qoşulmayıb.

**Millət vəkili Vüqar İskəndərov da bildirib ki, ermənilərin Azərbaycana qarşı bütün sahələrdə terror hərəkətləri var:** "Onlar Azərbaycana qarşı təkcə müharibə və insan öldürməklə deyil, eyni zamanda ekoloji terrorla da öz qara missiyalarını yerinə yetrirlər. Ermənilər ərazilərimizi işğal etdikdən sonra orada olan bütün yeraltı və yerüstü sərvətlərimizi sümürməklə məşğul idilər. Oxçuçaydan Araz çayı vasitəsilə zəhərli maddələr həm Azərbaycanın, həm də İranın ərazisinə tökülür. Azərbaycan tərəfi bu barədə İran tərəfini də xəbərdarlıq edib və bu barədə onlar tərəfindən də tədbirlər həyata keçirilməlidir. Göründüyü kimi ermənı terroru fasiləsiz şəkildə davam edir. Su ilə gələn bu zəhər həm insanlar, həm də torpaq və heyvanlar üçün çox təhlükəlidir".

**Politoloq Sədrəddin Soltan bildirib ki, Ermənistan ərazisində kəskin çirklənməyə məruz qalan çaylardan biri də Oxçuçaydır:** "Çayın mənbəyində yerləşən Qacaran mis-molibden, Qafan mis saflaşdırma kombinatının toksik tullantıları, eyni zamanda həmin şəhərlərin məişət-çirkab tullantılarının təmizlənmədən birbaşa Oxçuçaya axıdılması çayda ağır metalların normadan dəfələrlə artıq qeydə alınmasına səbəb olur. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən aparılan monitorinqlər göstərir ki, Oxçuçayın çirklənməsi digər transsərhəd çaylara nisbətən daha yüksəkdir. Ermənistanda fəaliyyət göstərən və Azərbaycana ziyan vuranlardan biri də Almaniyanın "Cronimet" şirkətidir. Bu şirkətin sahibi Almaniya vətəndaşı Hunter Pilarskidir. O, Zəngəzur mismolibden kombinatının və Yerevan təmiz dəmir zavodunun səhmlərinin bir hissəsinin sahibidir. Şirkət 10 ildən çoxdur Ermənistan bazarında fəaliyyət göstərir və Azərbaycan ekologiyasına qarşı terrorda iştirak edir. Onlar 1996-cı ildən Ermənistanda dağ-mədən sektorunda fəaliyyət göstərirlər. 2004-cü ildə Zəngəzur kombinatı özəlləşəndə "Cronimet" müəssisənin səhmlərinin 60 faizinə yiyələnib. Şirkət Afrika və Asiyanın onlarla ölkəsində də fəaliyyət göstərir. Hunter adı Ermənistan tərəfindən satın alınan erməni lobbiçiləri siyahısında var. Bu barədə "The USA Tribune" jurnalında yazı dərc edilib. "Cronimet"in adı Ermənistanın rəhbərləri ilə müxtəlif qalmaqallarda hallanır. Şirkətin gizli sahiblərindən biri də Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın kürəkəni, ölkəsinin Vatikandakı keçmiş səfiri Mikael Minasyandır. Sarkisyan Hunterlərin yardımı ilə Qarabağı talan edərək milyardlara sahib olub. Başqa sözlə, Almaniyanın bu şirkəti Serj Sarkisyanın qanunsuz varlanmasına dəstək olub, onun törətdiyi cinayət əməllərində iştirak edib. 2018-ci ilin noyabrında Pilarski Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşüb. Hökumət başçısı ona və şirkətinə fəaliyyətində uğurlar arzulayıb. Deməli, o, Azərbaycan torpaqlarının çirklənməsində Paşinyanla da əməkdaşlıq edib".

**İsmayıl**

# İlan vuranlar panikaya, qorxuya düşməməlidir

## "Bu hal ürək döyünmələrini tezləşdirir və zəhərin bədənə tez yayılmasına səbəb olur"

**İlan sancması yay aylarında, xüsusilə havaların qızmar keçdiyi dövrdə müşahidə edilir. Bu dövrdə ilanlar, xüsusilə də gürzələrin fəallıq dövrü başlayır.**

Yayda aktiv olan zəhərli ilanların, əqrəblərin, hörümçəklərin və həşəratların dişləməsindən çoxlu insan əziyyət çəkir. Təəssüf ki, hər il ilan sancmasından xeyli sayda insan həyatını belə itirir.

Dünən Qazaxda gənc oğlanı ilan sancıb. 2002-ci il təvəllüdlü Lerik rayon sakini Tağıyev Əlєddin İdris oğlu ilan sancması diaqnozu ilə xəstəxanaya yerləşdirilib. Dərhal ona ilan zəhəri əleyhinə zərdab vurulub, vəziyyətinin orta ağır olduğu bildirilir. Zərərçəkənin paytaxta aparılması nəzərdə tutulub.

**Tibb elmləri doktoru, professor-həkim Adil Qeybulla ilan sancması zamanı ilkin tibbi yardımların nədən ibarət olduğuna dair fikirlərini "Şərq"lə bölüşüb.**

Professor qeyd edib ki, ilanların bəziləri sancma zamanı tam öldürücü dozada zəhər ifraz etmir: "Azərbaycanda iki zəhərli ilan növü var. Biri gürzə, digəri isə çöl əfisi adlanan əfi ilandır. Adətən bunların sancması müşahidə oluna bilər. Digər zəhərli heyvanlara Abşeron yarımadasında və Azərbaycanda təsadüf edilmir. İlan zəhərlərinə qarşı vaksin, andidot var ki, bu, ilan zəhərindən hazırlanır. Həmin andidotlar regional olaraq paylanıb. Hər 3-4 rayonun mərkəzinə verilib. İlan sancması zamanı həmin mərkəzlərə müraciət etməli və andidot vurulmalıdır.



Andidot nə qədər tez vurulsa, xəstənin həyatı o qədər tez xilas oluna bilər. Təəssüflər olsun ki, ilan sancması zamanı insanlar çaşırlar, qorxuya, panikaya düşürlər. Bu zaman qorxmaq, panikaya düşmək ürək döyünmələrini tezləşdirir və zəhərin bədənə tez yayılmasına səbəb olur. Buna diqqət etmək lazımdır".

**Professor qeyd edib ki, ilan vuran yerin ətrafını mütləq rezin bağ vasitəsi ilə sıxmaq lazımdır ki, qan bütün bədənə yayıla bilməsin:** "Daha sonra isə yaxınlıqdakı tibb məntəqəsinə xəbər vermək lazımdır ki, xəstə oraya çatana qədər padzehr hazırlansın. Amma təəssüflər olsun ki, bu cür padzehrlər əsasən mərkəzi xəstəxanalarda saxlanılır və xəstəni oraya çatdırmaq üçün kifayət qədər vaxta ehtiyac olur. Bu da xəstənin həyatını ciddi şəkildə riskə atır".

**Yeganə Bayramova**

# Paşinyan ölkəsində avtoritar rejim yaradır



**Baş nazir ordudan sonra diplomatik korpusa qarşı geniş hücuma keçib**

Ermənistan Xarici İşlər Nazirliyində gərgin vəziyyət hökm sürür. "Hraparak" nəşri Ermənistan XİN-də azad düşünən diplomatların uzaqlaşdırılması prosesinin davam etdirildiyini yazır. Nəşr bildirir ki, bu qəbildən olan diplomatların "Facebook" hesabı hökumət tərəfindən diqqətlə araşdırılır. Əgər partiya əleyhinə yazılan postda şərh və ya layk görülsə, diplomatlar yalnız xaricdə işləmək hüququndan deyil, karyera perspektivindən də məhrum olurlar.

Nəşrin iddiasına görə, XİN öz əməkdaşlarına səbr etməyi və yeni nazirin təyinatını gözləməyi məsləhət görürlər. ”Hraparak” nazirlik daxilində qalmaqalın olacağını da yazıb. Vurğulanıb ki, iyulun birinə qədər xaricdə yeni iş yerlərinə getməli olan onlarla erməni diplomatın bu ölkələrə göndərilməsi təxirə salınıb. Buna səbəb həmin diplomatların Ermənistanın sabiq xarici işlər naziri Ara Ayvazyan tərəfindən təyin olunmasıdır. Xatırladaq ki, mayın 27-də xarici işlər nazirinin səlahiyyətlərini icra edən Ara Ayvazyan Nikol Paşinyanın Azərbaycanla təmas xəttində vəziyyətin deskalasiyası barədə planını açıqlayandan sonra istefa verib. Bundan sonra erməni mətbuatı XİN-də gözlənilən kütləvi istefalardan yazmağa başlayıb. Daha sonra xarici işlər nazirinin dörd müavini də istefa ərizəsi yazıb. Hazırda Ermənistan hakimiyyət dairələrində xarici işlər naziri və onun müavinləri vəzifəsinə namizədlərin fəal axtarışı gedir. Seçim baş nazirin müavininin səlahiyyətlərini icra edən Mger Qriqoryanın üzərindədir. Qeyd olunur ki, Qriqoryanın namizədliyi Rusiya tərəfindən qəbuledilləndir. Görünən odur ki, Ermənistan Baş nazirinin səlahiyyətlərini icra edən Nikol Paşinyan ona qarşı çıxmış nazirliyin kollektivini bağışlamaq niyyətində deyil. Bundan bir müddət öncə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bu günlərdə sabiq xarici işlər naziri Ara Ayvazyanı əsirlərin qaytarılması prosesini əngəlləməkdə ittiham edib. O bildirib ki, əsir məsələsini mayın 27-dək həll etmək mümkün olmayıb: ”Ayvazyan bizim tərəfdaşlara deyirdi ki, guya, minalanmış ərazilərin xəritəsi mövcud deyil, hansıları ki, artıq o, istefa verəndən sonra biz qarşı tərəfə verdik. Ayvazyan istefa verəndən sonra məsələ həll olundu”. Qriqoryanın sözlərinə görə, Ayvazyan təkcə yalan danışmayıb, həm də əsirlərin qaytarılması prosesini əngəlləyib. O hesab edir ki, sabiq nazirin təhlükəsizlik məsələlərini həll etmək istəyi olmayıb və o, yalnız Paşinyanın siyasi komandası üçün problemlər yaratmaq məqsədi güdüb.

*“Ermənistanda xarici siyasət və ordu sahəsində hərcmərclik uzun müddət davam edəcək. Bir çox ölkələrdə Ermənistan səfirliklərinin boş qaldığını xeyli vaxt müşahidə edəcəyik”*

**Ermənistan XİN-də baş verənləri ”Şərq”ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, siyasi şərhçi Tural İsmayılov bildirib ki, erməni cəmiyyətində narahatlıq doğuran amillərdən biri də Nikol Paşinyanın hakimiyyətə gəldikdən sonra vədlərinə əməl etməməsi ilə bağlıdır.** Analitik deyib ki, Paşinyan hökumət başçısı olarkən Konstitusiya Məhkəməsini və ölkənin məhkəmə hakimiyyətini linç etmək və siyasi qərarların piyon halına gətirilməsi üçün əlindən gələni etdi. Ardınca isə müxalif şəxslərə qarşı çox ciddi total təzyiqlərə başladı. Siyasi məhbusların sayı çoxaldı. Bütün bunlardan sonra Paşinyan ona qarşı tənqidçi mövqedə dayanan hər kəsi sıradan çıxarmağa çalışdı: ”İlk addımlarını hərbi komandanlıq və generalitet müstəvisində atdı. Ordunun içində anti-Paşinyan koalisiyasına daxil olan müxalif fikirli hərbçiləri ”zərərsizləşdirdi”. Daha sonra isə ölkənin diplomatik korpusuna qarşı hücuma keçdi. Əslində sabiq nazir Ara Ayvazyan və onunla birlikdə təyin olunan diplomatlar xaricdəki erməni lobbisinin göstərişi ilə Paşinyan tərəfindən təyin olunmuşdular. Ancaq Nikol Paşinyan o qədər avtoritar və diktator düşüncəli adamdır ki, istənilən tənqidə qarşı dərhal dözümsüzlük nümayiş etdirə bilir. Bu baxımdan Ermənistanda XİN nümayəndələrinin, səfir və konsulların təqibinə start verilib. Hazırda Ermənistanda təkcə hərbi sahədə deyil, diplomatiya sahəsində də ciddi kadr çatışmazlığı var”.

T.İsmayılov vurğulayıb ki, ölkənin biabırçı məğlubiyyət kapitulyasiyasından sonra bir çox erməni diplomat və siyasətçi Paşinyan komandasında işləməkdən imtina edib: ”Paşinyan məcbur qaldığı üçün güvənmədiyi adamları konsul təyin etməyə başlayıb. Amma o adamların gələcəkdə Paşinyana qarşı hansı addımları atacağı ilə bağlı bəri başdan proqnoz vermək mümkün deyil. Düşünürəm ki, Ermənistanda xarici siyasət və ordu sahəsində hərcmərclik uzun müddət davam edəcək. Bir çox ölkələrdə Ermənistan səfirliklərinin boş qaldığını xeyli vaxt müşahidə edəcəyik”.

**İsmayıl Qocayev**

## Sərhəddə atışma!

“İran ultimatumla ağıllanmayacaq”



“Çünki işin başında İran hakimiyyətindən asılı olan qüvvələr dayanır”



**Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilir.**

İyul ayının 5-də saat 23:45 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının ”Göytəpə” sərhəd dəstəsinin Cəlilabad rayonunun Sərxanlı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində 5 nəfər naməlum şəxsin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən aşkar olunub.

Sərhəd pozucularının silah və gecə görmə cihazları ilə silahlanması, onlardan birinin üzərində içərisində narkotik vasitə olması ehtimal edilən 1 ədəd çanta müşahidə edilib. Sərhəd zastavası ”Silaha” komandası üzrə qaldırılmış, xidməti ərazi qapadılıb. Sərhəd naryadı tərəfindən ”Dayan” əmrinin verilməsinə və havaya xəbərdarlıq atəşi açılmasına baxmayaraq, sərhəd pozucuları əmrə tabe olmayaraq silahlı müqavimət göstərib və avtomat silahdan atəş açaraq sərhədçilərin həyatına qəsd ediblər.

**Siyasi analitik Rusif Məmmədsoy məlum hadisəyə dair ”Şərq”ə danışıb:** ”Bu problem uzun illərdir davam edir. Təəssüf ki, indiyədək qarşısı alınmayıb. Əksinə, xeyli şəhid vermişik. Bu, ultimatumla düzələsi məsələ deyil. Çünki işin başında İran hakimiyyətindən asılı olan qüvvələr dayanır. Ona görə də daha ciddi tədbirlər görülməlidir”.

**Kənan**

# “Oxçuçay terroru”nun qarşısı alınmalıdır

Ermənistanın Azərbaycana qarşı ekoloji terroru davam edir. Belə ki, Zəngilan rayonu ərazisindən keçən Oxçuçayın çirkləndirilməsi, çay hövzəsinin flora və faunasının məhv edilməsi Azərbaycanda geniş rezonans və ictimai narazılıq doğurub.



**Məhərrəm Zülfüqarlı:** *“Müvafiq qurumlar məsələni beynəlxalq miqyasda qaldırmalıdırlar ”*

**Akif Nağı:** *“Türkiyə və İranla birlikdə beynəlxalq təşkilatlara müraciət etməliyik”*



Bu prosesdə xüsusilə Qərb şirkətlərinin iştirakına dair çoxsaylı faktlar var. Azərbaycan mediasının Almaniya səfirliyinə müraciətinə səfirin cavabı məsələni ört-basdır etmək və diqqəti şirkətin üzərindən yayındırmaq məqsədi daşıyıb.

Bu ölkənin Yaşıllar Partiyası isə ümumiyyətlə müraciətə saymazyana cavab verərək Azərbaycana ayırmaq üçün vaxtlarının olmadığını bildirib. Almaniya mediası müxtəlif illərdə Azərbaycana qarşı Soros şəbəkəsinin təşkil etdiyi qarayaxma kampaniyalarında fəal iştirak edib. Qarayaxma kampaniyalarının təşkilində Soros şəbəkəsinin Azərbaycanda özəl maraqları xüsusi diqqət çəkir. Həmçinin Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsi və xarici tərəfdaşlarının sayının artması, beynəlxalq əlaqələrinin genişlənməsi, ölkəmizin öz tərəfdaşları ilə uğurlu enerji layihələrini reallaşdırması, Ermənistanda Sorosun layihəsi olan N.Paşinyanın hakimiyyətə gəlməsi kimi məqamlar da məsələyə təsirsiz ötüşmür.

**AVCİYA-nın Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı bu barədə ”Şərq”ə açıqlamasında düşmənin hərəkətini qınayıb**: ”Sözügedən problem sovet dövründən var. İşğaldan sonra isə kütləvi hal aldı. Müvafiq qurumlar məsələni beynəlxalq miqyasda qaldırmalıdırlar. Cinayətin qarşısı birdəfəlik alınmalıdır. Əks halda, ekoloji terror davam edəcək. Və bundan təkcə Azərbaycan yox, qonşu ölkələr, o cümlədən İran da əziyyət çəkəcək”.

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı da düşünür ki, problemin həlli istiqamətində operativ addımlar atılmalıdır:** ”Bu, regional əhəmiyyətli məsələdir. Ona görə qonşu ölkələrlə, o cümlədən Türkiyə və İranla birlikdə beynəlxalq təşkilatlara müraciət etməliyik. İlk növbədə Ermənistana təzyiq göstərməliyik. Ekoloji terrorda iştirak edən ayrı-ayrı xarici dövlət başçıları ilə danışa bilərik. Həmçinin beynəlxalq məhkəmələrə baş vurmaq da məqsədəuyğundur”.

**Kənan Novruzov**




# Ən effektli yol rəqs etməkdir

## Psixologiyamızı virus kabusundan qoruya bilərik

Dünyada və ölkədə vaksinləşmə prosesinin sürətlə davam etməsi koronavirus kabusundan tezliklə qurtulmağımızla bağlı ümidlərimizi artırırdı. Yaxın zamanda əvvəlki, darıxdığımız həyata qayıda biləcəyimizə görə sevinirdik. Amma sevincimiz yarım qaldı... Hansısa transmilli media orqanlarından birinin COVİD-19-un "Delta" ştammı barədə yaydığı informasiya sürətlə bütün planetdə əks-səda yaratdı. Və virus özü gəlməmiş qorxusu gəldi.

Əlbəttə, bu dövrdə insanların aqressivləşməsi, səbrsiz davranışları heç də təsadüfi deyil. Bu, xeyli dərəcədə məhz koronavirusun psixoloji təsirləri ilə əlaqədardır.

**Psixoloq Aynur İskəndərova "Şərq"ə açıqlamasında hazırkı durumun şüurumuza mənfi təsirindən danışıb:** "Koronavirusun "Delta" növü haqqında məlumatların yayılması insanlarda narahatlıq hissinin yaranmasına səbəb olur. Son zamanlar karantin şərtlərinin yumşaldılması insanların bir yerə toplaşmasına, birlikdə əylənməsinə, uzaq məsafədə yaşayan yaxınların görüşməsinə şərait yaradıb. Bu rahatlığın ardından yenidən belə bir virusun yaranması, yayılması bizdə çaşğınlıq və narahatlıq doğurur. Həmçinin virusun yaranması gələcəkdə sərt karantin qaydalarının bərpa olunması ehtimalını da istisna etmir. Əlbəttə, vətəndaşlar bunun fərqindədirlər. Əslində narahatlıq insanı onu təhdid edən hadisələr haqqında məlumat verən, özünü müdafiə üçün tədbirlər görməyə təşviq edən normal hissdir. Ancaq bu hiss uzun müddət davam edərsə və kəskin stres halına keçərsə, insanın ilk əvvəl düşünmə qabiliyyətini itirməsinə, qısamüddətli yaddaşın pozulmasına və sonda beynimizin digər funksiyalarının pozulmasına səbəb olur. Bu baxımdan narahatlıq hissinin uzun müddət davam etməməsi üçün əvvəl virus haqqında olan yalnız doğru informasiyaları oxumalı, öz fiziki sağlamlığımızı necə qoruyacağımızı bilməli, psixoloji sağlamlığımızı müdafiə etmək üçün lazımi tədbirləri görməliyik".



**O, həmçinin çıxış yolunu da göstərib:** "Dediyim kimi, psixoloji sağlamlığımızı müdafiə etməkdən ötrü özümüzü yalnış, doğru olmayan informasiyalardan qorumalıyıq. Habelə həddindən artıq narahatlıq hissindən qurtulmaq üçün müsbət emosiya yaradacaq fəaliyyətlərlə məşğul olmalı, sosial münasibətlərimizi və əmək fəaliyyətimizi mövcud şəraitə uyğunlaşdıraraq davam etdirməliyik. Narahatlıq hissinin bizə göstərdiyi mənfi təsiri aradan qaldırmaq naminə ən effektli yollardan biri musiqi sədaları altında rəqs etməkdir. Bunu uşaqlarla birlikdə etmək onların da emosional sferasına müsbət təsir göstərər. Çünki aparılan tədqiqatlar nəticəsində musiqi sədaları altında oynayan uşaqların koqnitiv bacarıqlarının artdığı müşahidə olunub. "Delta" virusunun simptomlarına uşaqlarda daha tez rast gəlindiyi məlumdur. Odur ki, övladlarımıza müəyyən oyunlar, şəkillər vasitəsilə vəziyyəti izah etməliyik. Beləliklə, uşaqlarda xəstəlik fobiyası kimi pozğunluğun yaranma ehtimalını azaltmış olarıq. Bir sözlə, virusa məğlub olmamaq üçün fiziki, psixoloji sağlamlığımızı, sosial rifahımızı daim qorumalıyıq".

**Kənan Novruzov**

# Son sutkada 78 nəfər COVID-19-a yoluxub

## 47 nəfər sağalıb, ölüm qeydə alınmayıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 78 yeni yoluxma faktı qeydə alınıb, 47 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, son sutkada COVID-19-dan ölüm halı qeydə alınmayıb.

İndiyədək ölkədə ümumilikdə 336557 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 330513 nəfər müalicə olunaraq sağalıb, 4978 nəfər vəfat edib, aktiv xəstə sayı 1066 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9952, ötən müddət ərzində isə ümumilikdə 3802992 test aparılıb.*

# Sabiq icra başçısı məhkəmədə ifadə verməkdən imtina edib



**Lənkəran Ağır Cinayətlər Məhkəməsində Neftçala rayon İcra Hakimiyyətinin həbsdə olan sabiq başçısı İsmayıl Vəliyev, icra hakimiyyəti başçısının birinci müavini Vurğun Əkbərov, Memarlıq və tikinti şöbəsinin müdiri Vüqar Nağıyev, rayon Təhsil şöbəsinin müdiri Əjdər Kərimov, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Anar Cəfərov, rayon Mərkəzi Xəstəxanasının baş həkimi Telman Zahidovun barəsində olan cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

Hakim Nizami Quliyevin sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqı açıq elan edilib və prokuror ittiham aktını elan edib.

Sabiq icra başçısı İsmayıl Vəliyev özünü ittihamlarda təqsirli bilməyib və ifadə verməkdən imtina edib.

İş üzrə növbəti məhkəmə prosesi iyulun 12-ə təyin edilib.

İsmayıl Vəliyev və digərləri Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən ötən ilin fevralında həbs edilib.

# ÜST rəhbəri xəbərdarlıq edib

## "Koronavirus pandemiyasının çox təhlükəli mərhələsi çatıb"



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adanom Qebreyesus koronavirus pandemiyasının çox təhlükəli mərhələsinin çatdığını bildirib.**

"RİA Novosti" xəbər verir ki, baş direktor hazırda virusla mübarizə üçün köməkçi vasitələrə, ilk növbədə peyvəndlərə sahib olan dövlətlərin məhdudiyyətləri yumşaltdığını deyib.

"Bununla yanaşı, effektli vasitələrə əli çatmayan ölkələr daha çox kütləvi xəstəxanaya yerləşdirilmə və ölüm halları ilə qarşılaşır. Bu, virusun yeni ştammları ilə daha da kəskinləşir", - deyə ÜST rəhbəri əlavə edib. (apa)

Onun fikrincə, belə bir vəziyyətdən yeganə çıxış yolu ölkələr arasında testlərin, peyvəndlərin, dərmanların və qoruyucu vasitələrin ədalətli paylanmasıdır: "Bu, raket istehsalı və ya xeyriyyəçilik deyil. Bu, bütün maraqlara cavab verən məntiqli ictimai səhiyyə xidmətidir".

Təşkilat rəhbəri qeyd edib ki, hər şeyin yaxşıya doğru dəyişiləcəyinə ümid var, COVAX peyvənd paylanılması proqramı buna misaldır. Qebreyesus ölkələri bu istiqamətdə öz səylərini artırmağa çağırıb.

# Azərbaycan jurnalistləri "Sərhədsiz reportyorlar"a etiraz edir

"Sərhədsiz reportyorlar" təşkilatı Azərbaycana qarşı ənənəvi qərəzli münasibətini davam etdirir. Qurumun yaydığı hesabatlarda ölkəmizdə söz və ifadə azadlığı, medianın durumu barədə həqiqətə uyğun olmayan iddiaların irəli sürülməsi, müxtəlif reytinq sıralarında Azərbaycanın ən aşağı yerlərdə göstərilməsi, bunu əsaslandırmaq üçün primitiv forma və metodlardan istifadə olunması adi hal alıb. Məqsəd belə vasitələrlə Azərbaycanı gözdən salmaq, onun beynəlxalq müstəvidəki imicini ləkələməkdir".

"Şərq" xəbər verir ki, bu fikirlər Azərbaycan jurnalistlərinin bəyanatında yer alıb.

Bəyanatda qeyd olunub ki, "Sərhədsiz reportyorlar"ın aşkar manipulyasiyası Azərbaycan cəmiyyətində, eləcə də media ictimaiyyətində təəssüf və hiddət doğurur.

Bəşəri dəyərlər olan söz və ifadə azadlığının hansısa təşkilatın və ya onun xidmət etdiyi dairələrin maraq və mənafelərinin təminatında alətə çevrilməsi son dərəcə təhlükəli və zərərli tendensiyadır, haqq və ədalət anlayışına aşkar həqarətdir: "Azərbaycan jurnalistləri buna etirazını bildirir, bu halı qəti şəkildə pisləyirlər.

"Sərhədsiz reportyorlar" 44 günlük Vətən Müharibəsi dövründə öz vəzifə borcunu yerinə yetirmiş Azərbaycan və xarici jurnalistlərinin Ermənistan hərbçiləri tərəfindən atəşə tutulmasına heç bir münasibət bildirmədi. Təşkilat azərbaycanlı jurnalistlər - Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimovun və AZTV-nin operatoru Sirac Abışovun Kəlbəcərdə mina partlayışı nəticəsində həyatlarını itirmələrinə mahiyyətdən uzaq, ümumi səciyyə daşıyan reaksiya verməklə kifayətləndi. Digər tərəfdən, qurum hər hansı real fakta əsaslanmadan guya azərbaycanlı hərbçilərin Ermənistanla Azərbaycanın sərhəddində çəkiliş aparan ispaniyalı jurnalistləri ölümlə hədələdiklərini iddia edib. Belə yarıtmaz dəst-xətt seçmiş təşkilatın söz və ifadə azadlığının müdafiəçisi qismində çıxış etməsi bu sahədə beynəlxalq səviyyədə ciddi problemlər olduğunu göstərir".

Azərbaycan jurnalistləri bir daha dünya ictimaiyyətini "Sərhədsiz reportyorlar" kimi bəşəri dəyərlər manipulyatoruna, mətbəxində qərəzin ən müxtəlif ağlagəlməz forma və metodları hazırlanan quruma qarşı səfərbər olmağa çağırır: "Heç bir sığorta yoxdur ki, Azərbaycana qarşı seçilmiş primitiv metodlar nə zamansa digər dünya ölkələrinə qarşı da tətbiq olunmayacaqdır. Tətbiq olunur da. Bundan zərər görən isə bütövlükdə bəşəri dəyərlərdir - söz və ifadə azadlığıdır".

Bəyanatda vurğulanır ki, "Sərhədsiz repotyorlar"a münasibətdə beynəlxalq ictimaiyyətin ciddi ictimai qınağı olmalıdır. Ciddi, sərt ictimai qınaq formalaşmadıqca azad media prinsipləri siyasi maraq və mənafelərin həyata keçirilməsində alətə çevrilmiş durumda qalacaq: "Azərbaycan jurnalistlərini naharat edən həm də budur. Biz, bu durumun aradan qaldırılması, "Sərhədsiz reportyorlar"ın ölkəmizə münasibətdə yol verdiyi haqsızlığın durdurulması naminə əməkdaşlığa, əsl həqiqətləri bölüşməyə, müzakirələr aparmağa hazırıq".

**İsmayıl**






# Gələcəkdə ən çox qazanan politoloq və siyasətçilər olacaq

**Məhəmməd Əsədullazadə: "Bu Azərbaycan üçün real deyil"**

**Turab Rzayev: "Bu, bütün siyasətçilərə şamil olunacaq. Çünki artıq insanlar yeni yanaşmaya doğru can atır"**

**Əhəd Məmmədli: "Azərbaycanda siyasət ən az pul qazanılan sahədir"**

**İlyas Hüseynov: "Politoloqların gələcəkdə 124 min dollardan çox maaş ala bilməsi bir qədər təəccüblüdür"**

"Biznes İnsayder" adlı şəbəkənin mütəxəssisləri gələcəkdə ən çox qazanan 20 peşəni müəyyənləşdiriblər. Siyahının əvvəlində politoloqların - siyasətçilərin olması xeyli diqqət çəkib. Belə ki, araşdırmalara əsasən politoloqlar təqribən 124 min dollardan çox maaş ala biləcəklər. Qeyd edək ki, bu siyahı 2029-cu ilə nəzərən hesablanıb. "Biznes İnsayder" hesab edir ki, texnologiyanın inkişafı ilə əlaqədar ixtisaslar da insan ehtiyaclarından asılı olaraq dəyişir. Əslində keçmişdə "sevimli peşələr" adlandırılan bir çox peşə hazırda tətbiq olunmur.



Sözügedən şəbəkədə çalışan mütəxəssislər də peşələrini seçəcək şəxslərə bələdçilik etmək üçün gələcəkdə ən çox qazanan 20 peşəni açıqlayıb. Qeyd edək ki, bu siyahı 2029-cu ilə nəzərən hesablanıb. Birincisi, siyasət adamları olan siyahıda ikinci yeri kimya mühəndisləri tutur. Belə ki, 2029-cu ildə bu peşəni seçənlərin orta illik maaşı 114.820 dollar olacaq. Bəs Azərbaycan üçün bu vəziyyət realdımı? Bu barədə "Şərq" politoloqlar arasında sorğu keçirib.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında bildirib ki, bu vəziyyət Azərbaycan üçün real deyil. O qeyd edib ki, bu, Qərbin demokratik ölkələrinə xasdır:** "Orada araşdırma mərkəzləri, mətbuat və televiziyalar müstəqildir və kifayət qədər maliyyəsi olur. Azərbaycanda isə dövlətdən tam asılılıq var və gələcəkdə də bu, bir müddət belə davam edəcək. Ona görə də bu, Azərbaycan üçün real deyil. Düzdür, bəzi istisnalar ola bilər. Amma ümumi olaraq Azərbaycan kimi ölkələrdə politoloq və siyasətçilərin maliyyəsi çox aşağı səviyyədədir. Bu istiqamətdə inkişaf yoxdur".

**Politoloq Turab Rzayev isə "Şərq"ə açıqlamasında məsələyə fərqli yanaşıb. O bildirib ki, artıq yeni dövr yeni yanaşma tələb edir:** "Artıq bir çox siyasətçilər bu peşəyə müasir menecment qaydalarına uyğun bir baxış tələb edirlər. Biz bunun nümunələrini daha əvvəl də görmüşük. Məsələn, Sinqapurda öndə gedən şirkətin icra direktorlarının maaşının ortalaması götürülür və onun əsasında Baş nazirə maaş təyin edilir. Çünki baş nazir ölkənin meneceri kimi qəbul olunur. Eyni şəkildə bir sıra körfəz ölkələrində, Qərb ölkələrində bu cür yanaşmanın biz şahidi oluruq. Düşünürəm ki, bu, bütün siyasətçilərə şamil olunacaq. Çünki artıq insanlar yeni yanaşmaya doğru daha da müsbət yanaşırlar. Və artıq keçmiş sırf ideoloji cəhətdən bağlı hansısa ideoloji partiya, xətlərə uyğun daha çox fanatik liderlər bir növ artıq arxada qalır. Hətta bəzi ölkələrdə buna görə ictimaiyyət arasında tanınmış adamlar və yaxud sırf internet fenomenləri, blogerlər və s. bəzilərində artistlər daha çox seçkilərdə səs toplayırlar. Düşünürəm ki, bunun özü yeni yanaşma gətirəcək. Məsələn, 2029-cu ildə daha effektiv, qızğın və aktiv siyasi mühit görəcəyik. Həmin müddətdə əlbəttə ki, iştirakçılara menecer yanaşması tələb olunacaq. Ona görə də həmin peşənin dəyəri və ona ödəniləcək miqdarda artacaq. Hesab edirəm ki, nə qədər siyasi oyunçular çoxdursa və qabiliyyətlərinə ehtiyac duyulursa, o zaman onların peşələrinin dəyəri və onlara veriləcək konpensasiyanın dəyəri də artacaq. Bu tamamilə normal haldır. Düşünürəm ki, 2029-cu ilə qədər Azərbaycanın bu sahəsində xeyli irəliləyiş nəzərə çarpacaq".

**Politoloq Əhəd Məmmədli "Şərq"ə açıqlamasında deyib ki, o, 2001-ci ildən rəsmən siyasətdədir:** "20 ildir ki, siyasətlə məşğul olmuşam. Deyərdim ki, Azərbaycanda siyasət ən az pul qazanılan sahədir. İqtidarda müəyyən qədər qazanc var, amma müxalifətdə yoxdur. Ümumiyyətlə, Azərbaycanda bu sahədən insanlar qaçır. Yəni Azərbaycanda hələlik bu sahədə elə bir gəlir əldə etmək mümkün deyil. Ancaq gələcəkdə bəlkə də hansısa yeniliklər ola bilər".

**Politoloq İlyas Hüseynov "Şərq"ə açıqlamasında bildirib ki, "Biznes İnsayder"in statistikasında siyasətçilərin və politoloqların öndə olması diqqət çəkir:**

"Təbii ki, aktiv siyasətlə məşğul olan şəxslər, xüsusilə dövlət rəsmiləri, millət vəkilləri, siyasi institutların rəhbərləri, dövlətin siyasi sahədə tədqiqatlar aparılmasını sifariş edən və onu icra edən şəxslər çox yaxşı məvaciblər alırlar və bu məvaciblər ümumi kütlənin qazandığından fərqlənir. Lakin politoloqların da gələcəkdə 124 min dollardan çox maaş ala bilməsi bir qədər təəccüblüdür. Çünki Azərbaycanda bu cür məbləğin politoloqlara verilməsi demək olar ki, praktiki olaraq mümkün deyil. Dövlətin bir çox sahələrdə nəzarət institutları, nəzarət mexanizmləri var. Məsələn, media üzrə Media İnkişaf Agentliyi var ki, kütləvi informasiya vasitələrinin nəzarətini bu orqan həyata keçirir. Qeyri-hökumət təşkilatlarının da nəzarət orqanları var. Bu siyahını təbii ki, uzatmaq olar. Lakin siyasi-şərhçilərin, politoloqların, ictimai düşüncə sahiblərinin, xalqa siyasi proseslərlə bağlı müfəssəl məlumatlar ötürənlər üçün hər hansısa bir orqan yoxdur. Onlara təlimlər də keçirilmir və bu sahədə sanki bir pərakəndəlik var. Qeyd edim ki, politoloqların bu günləri Azərbaycanda əsas məsələlərdə maddi ehtiyacları ödənilmir. Bu nöqteyi-nəzərdən biz qeyd edə bilərik ki, bu sahəyə diqqətin ayrılması məhz Azərbaycanda çox önəmlidir. Çünki SSR dövründə ictimai fikir sahibləri və müəyyən siyasi düşüncəni formalaşdıran şəxslərə qonorarlar ödənilirdi. Hazırkı durumda televiziyalarda, qəzetlərdə, saytlarda, analitik informasiya portallarında bu cür praktika yoxdur və ödənişlər həyata keçirilmir. Yaxşı olardı ki, bu sxem işə salınardı. Bu sahə üzrə diqqət ayrılar və dövlətin də bu sahəyə dəstəyi müşahidə olunardı. Çünki hər gün müxtəlif şərhlərin, təhlillərin verilməsi, bu sahədə olan fəaliyyətin maddi qarşılığı da siyasi-şərhçilər və politoloqlar üçün çox önəmlidir. Günümüzün reallığından irəli gələrək qeyd edə bilərik ki, maddi dəstəyin göstərilməsi işin effektivliyinə də müsbət təsir göstərəcək".

**Aynurə Pənahqızı**

## Prezident İlham Əliyevin tapşırığı ilə Arif Quliyevin məzar daşı hazırlanıb



**Mərhum Xalq artisti, tanınmış aktyor Arif Quliyevin məzar daşı hazırlanıb. Bu barədə Sputnik Azərbaycan-a məlumat aktyorun oğlu Rövşən Quliyev məlumat verib.**

O qeyd edib ki, məzar daşı Prezident İlham Əliyevin tapşırığı əsasında hazırlanıb.

*Xatırladaq ki, bir müddət öncə, maddi imkanı olmayan Quliyevlər ailəsi əlaqədar qurumlar, o cümlədən Mədəniyyət Nazirliyindən dəstək gözlədiyini bildirmişdi. Eyni zamanda, mərhum aktyorun sənət dostu Natiq Fərzəliyev saytımıza açıqlamasında "nazirlik üzərinə götürməsə, öz maddi vəsaitimiz əsasında məzar daşını hazırlamağa hazırıq", deyib dəstəyini nümayiş etdirmişdi. Mədəniyyət Nazirliyi isə büdcələrinin olmadığını əsas gətirmişdilər.*

## Ağdam istiqamətində bölmələrimiz atəşə tutulub

### Azərbaycan Ordusunun hərbi qulluqçusu yaralanıb



**Dünən saat 17:50 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələri tərəfindən Azərbaycan Ordusunun Ağdam rayonunun Əliağalı kəndi istiqamətində yerləşən bölmələri atəşə tutulub.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, atəş nəticəsində yol təkmilləşdirmə işlərinə cəlb olunan hərbi qulluqçumuz baş gizir Dadaşov Sakit Əhliman oğlu yaralanıb. Yaralıya ilkin tibbi yardım göstərilib və o, hərbi hospitala təxliyə olunub.

*Baş vermiş insidentin araşdırılması üçün Rusiya sülhməramlı qüvvələrinin komandalığına və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinə məlumat verilib.*

## Bu dəfə hədəf Qazaxdır

### Ermənilər Azərbaycan ərazilərində yanğın törədib

**Azərbaycan- Ermənistan sərhədində yanğın başlayıb.**

Report xəbər verir ki, Ermənistanla Qazax rayon sərhədində düşmən quru ot sahələrinə alov vurub.

Qazaxın Qaymaqlı kəndi ilə sərhəd olan ərazidə baş verən yanğının kənd ərazisinə keçməməsi üçün 3 yanğınsöndürən maşın cəlb olunub.

*Qeyd edək ki, Azərbaycan tərəfdəki əraziyə yaxın yaşayış evləri yoxdur.*

## Kürdə batan 5 yaşlı uşağın meyiti tapılıb



**Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə Kür çayının Mingəçevir şəhəri ərazisindən keçən hissəsində 1 nəfərin batması barədə məlumat daxil olub.**

FHN-dən "Şərq"ə verilən məlumata görə, nazirliyin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu tərəfindən həyata keçirilən tədbirlər nəticəsində 2016-cı il təvəllüdlü Şirinli Murad Bəxtiyar oğlunun meyiti tapılaraq aidiyyəti üzrə təhvil verilib.

### "Şərq"in müxbiri pasiyent kimi psixoloq qəbulunda oldu və eşitdiklərini duyduqlarını qələmə aldı





# "Elə bil 100 ildir onu tanıyırdım"

Mənə bu tapşırıq veriləndə xeyli düşünməli oldum. Kimə, hara müraciət edim? Təsadüfən sosial şəbəkələrdə adına rast gəldiyim "Genessis" psixologiya mərkəzinə zəng etdim. Əslində, ətrafımda psixoloqlar kifayət qədərdir. Amma mənə məni tanımayan biri lazım idi.

Qeydiyyat masasına yaxınlaşıram. Gülərüz, gənc qız sual dolu baxışlarla "Buyurun" deyir.

**- Buranı mənə bir tanış məsləhət gördü. Haqqınızda xoş sözlər eşitmişəm. Narahatlığım var. Və psixoloq qəbuluna yazılmaq istəyirəm.**

- Əvvəlcədən hazırladığım cümləni deyirəm.

Xanım ad, soyadımı yazır və soruşur:

- Narahatlığınız nədəndir?

Konkret cavab verə bilməyib, sadəcə təbəssüm edirəm.

Qız məni diaqnostika otağına yönləndirir: "Gedin, orada məlum olar. Nəticədən sonra sizi psixoloqa yönləndirərik".

...Qapını döyüb içəri girirəm. Burada da məni təbəssümlə qarşılayıb, "Xoş gəlmisiniz" deyirlər, oturmaq üçün yer göstərirlər. Mütəxəssis bir ağ vərəq çıxarıb mənəvi və fiziki ağrılarla bağlı konkret "Hə", "Yox" cavabı tələb edən suallar verir. Çox düşünmədən cavab verməyə çalışıram. Mən cavab verdikcə vərəqdə, hər sualın qarşısında "1" və ya "0" yazır. Suallar tam bitdikdən sonra "Psixoloq qəbuluna yazılsanız yaxşı olar" deyir. Mənə lazım olan da elə bu idi.

...Yenidən qeydiyyat masasına yaxınlaşıram. Başqa bir pasiyentə (Bəli, burada mən də pasiyentəm) nə isə izah edən xanıma sual verirəm: "Diaqnostikadan keçdim, seanslara bu gündən başlasaq, olar?". Sözləri xüsusi intonasiya ilə tələffüz etdiyimə görə nə söyləmək istədiyimi başa düşürlər. Və "Problem yoxdur" deyib məni müvafiq psixoloqun otağına yönləndirirlər. Tanımadığım, indiyədək üzünü görmədiyim psixoloqa nə deyəcəyimi düşünürəm. Qapının ağzında bir qadın, biri kişi olmaqla iki nəfər söhbət edirlər. Yaxınlaşıb, məni qeydiyyat masasından göndərdiklərini deyirəm. Kişi - sonradan adını öyrəndiyim psixoloq Müşviq Mustafayev məni kabinetinə dəvət edir. Birlikdə içəri keçirik. Otaq o qədər böyük olmasa da, işıqlı və rahatdır. Rəfdəki kitablar diqqətimi çəkir. Psixoanalizin banisi Ziqmund Freydin əsərləri də var.

Psixoloq həyəcanlı olduğumu görüb (Bu həyəcan işimin hər an yarımçıq qala biləcəyi ehtimalına görədir) bir qədər sakitləşməyimi gözləyir. Ardınca sanki məni illərdir tanıyırmış kimi soruşur: "Xeyirdimi?". Məndən səs çıxmadığını görüb özü təşəbbüsü ələ alır. Təbəssümlə dediyi "Başla, görüm, nədir səni bura gətirən" sözlərilə cəsarətlənirəm. Deyəsən, psixoloqların hamısı gülərüz olur.

Bilirəm ki, yalandan senari uydurmağa dəyməz. Ona görə də yaşadığım bəzi xatirələrdən söz açıram. Sakit formada dinləyir, hərdən bir qarşısındakı vərəqə nələrsə qeyd edir. Bəzən də gülümsəyir. Təxminən on dəqiqə danışmadı. Ancaq dinlədi. Ola bilsin, necə deyərlər, ürəyimi boşaltmağımı gözləyirdi.

Danışdıqca arabir pəncərədən çölə baxıram. Mənzərə gözəldir. Sanki bütün şəhər ayağımın altında imiş kimi hiss edirəm özümü.

Sonra suallar verməyə başlayır. Mümkün qədər səmimi cavab verməyə çalışıram. Bura jurnalist kimi gəlsəm də, tədricən özümü, həqiqətən, pasiyent kimi hiss edirəm.

Psixoloqun telefonuna bir neçə dəfə zəng gəlir. Əvvəl zəngdən imtina edir. Sonra isə həmin şəxsin israrı qarşısında smartfonunun ekranını çevirir. Bütün diqqətinin məndə olduğu aydın sezilir.

Dediyim kimi, danışdıqlarım realdır. Elə buna görə də bəzən təəddüd edirəm, çəkinirəm. Həmin anlarda "Hə, sonra?" deyir və qəribə həlimliklə mənə baxır. Sanki "Dərdini açmayan dərman tapmaz" söyləyirmişcəsinə

Yavaş-yavaş danışdıqlarıma münasibət bildirir, müxtəlif psixoloji texnikalardan istifadə edir. Yəni söhbətimiz daha interaktiv olur.

İstiləndiyimi hiss edir. Qalxıb pəncərəni açır. Sonra da mənimlə üzbəüz oturur. Danışdıqca özözümə düşünürəm ki, ilk dəfədir psixoloq qəbulunda oluram. Əslində lazımdır. Hətta problem olmasa belə, eşitdiklərinlə, elə bil, ruhun yenilənir. Psixoloq bayaq qeydlər apardığı vərəqə hərdən bir, gözucu baxaraq sözlərinə davam edir.

Adətən filmlərdə, kitablarda psixoloqları elə təqdim edirlər ki, sanki onların işi ancaq "Başa düşürəm" deməkdən ibarətdir. Lakin belə deyil. Demə, psixoloqların işi pasiyentlərini diqqətlə dinləmək və onların düşüncələrini dəyişməkdən ibarət etmiş. Bir az düşünüb bu dəfə mən sual verirəm ki, mənim kimi pasiyentləriniz çoxdur?. "Hə, var" cavabından sonra istər-istəməz sevinirəm. Dəqiqləşdirmə aparmaq üçün bu dəfə daha konkret soruşuram: "Ən çox hansı problemlərə görə müraciət edirlər?". Psixoloqun sözlərinə görə, insanlar bura ən müxtəlif psixoloji problemlərlə bağlı gəlirlər.

Gözüm divardakı saata sataşır. Təxminən 40 dəqiqədir ki, buradayam. Psixoloq tədricən fikirlərini yekunlaşdırır: Qapıdan çıxan kimi düşünürəm ki, görəsən, psixoloqlar gün ərzində neçə pasiyenti qəbul edir, neçə dərdi dinləyirlər? Bir vaxtlar eşitdiyim "Psixoloqların da bəzən psixoloqlara ehtiyacı olur" fikri yadıma düşür. Əlbəttə. Çünki onlar da insandırlar

Bayaq gördüyüm xanımla yenə üz-üzə gəlirəm. Seansın necə keçdiyi ilə maraqlanır. Razılığımı bildirirəm. Elə ünsiyyət üçün nə deyəcəyimi fikirləşirdim ki, özünü təqdim edir: "Mənim adım Güneldir. Günel Aslanova. Sizi narahat edən düşüncələrdən tez bir zamanda uzaqlaşacağınıza inanır və ümid edirəm". Adını öyrənən kimi otaqda onun adının yazıldığı diplomlar, sertifikatlar gözümün qabağına gəlir.

Qəfil yadıma nəsə düşübmüş kimi Müşviq Mustafayevin otağına gedirəm. Qapını döyüb içəri keçəndə başqa bir pasiyentin olduğunu görürəm. Cəld bu sözləri tələffüz edirəm: "Müşviq müəllim, dediklərinizdən sonra xeyli rahatladım. Sanki yüklərdən azad oldum. Sizinlə bir xatirə şəkli çəksək olar?". Təəccüblənsə də, bir söz demir. Beləliklə, digər pasiyentdən fotomuzu çəkməyini xahiş edirəm. O da heyrətlənir, lakin sözümü yerə salmır.

Qeydiyyat masasındakı xanım da seansın necə keçdiyi ilə maraqlanır. Psixoloqun sözlərini xatırlayıb cavab verirəm ki, hər şey düşündüyünüzdən də yaxşı oldu. Ardınca da təbəssümlə "Genesis" psixologiya mərkəzini tərk edirəm. Üzlərini ilk dəfə görsəm də, burada ünsiyyətdə olduğum hər üç nəfəri, elə bil, yüz ildir tanıyıram...

**Kənan Novruzov**



**"Gələcəkdə Mübariz Mənsimov həm Türkiyənin, həm də Azərbaycanın biznes mühitində özünəməxsus yerini tutacaq"**

# Mübariz Mənsimov bacarıqlı iş adamıdır

## O, qısa zamanda əvvəlki reputasiyasını və iş dövriyyəsini bərpa edəcək



**"Palmali" Şirkətlər Qrupunun prezidenti Mübariz Mənsimovun ev həbsi üzərindən götürülüb. Artıq azərbaycanlı biznesmen işə də çıxır. Mənsimovun köməkçisi Fidan Quliyeva deyib ki, iş adamı donüşü ilə əlaqədar əməkdaşların qarşısında çıxış edib və artıq yeni səhifənin açıldığını söyləyib:**

"350 gün nələr yaşadığınızı bilirəm. Geriyə, keçmişə baxmadan yalnız irəli gedəcəyik. İnanıram, daha yaxşı günlər bizi gözləyir". Ötən ilin martında FETÖ terror təşkilatına üzv olmaqda ittiham edilərək saxlanılan M.Mənsimovun bu ilin martında məhkəməsi keçirilmiş və o, 5 il müddətinə şərti cəza alaraq məhkəmə nəzarəti altında şərti azadlığa buraxılmışdı. İndi isə iş adamı iyunun 29-da İstanbuldan çıxmama şərtiylə ev həbsindən azad olunub. Azərbaycanlı iş adamı Mübariz Mənsimov haqqında, xüsusən FETÖ ilə əlaqəsinin olub-olmaması, "Palmali" şirkətlər qrupunun fəaliyyəti barədə son dönəmlər xeyli müzakirələr getdi. Əksəriyyət həbs olunan iş adamına dəstək verərək onun azadlığını tələb etdilər. Mənsimovun Azərbaycana, soydaşlarımıza xeyli iqtisadi fayda verdiyi, ölkəmiz üçün önəmli şəxs olduğu vurğulandı. Hətta bu məsələni iki qardaş ölkə arasında problem yaradacaq amil kimi şərh edənlər də oldu. Nəticədə bir müddət sonra azərbaycanlı biznesmen işinə geri döndü.

**İqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə deyib ki, gec də olsa, hüquqi prosedurlar çərçivəsində iş adamı Mübariz Mənsimovun haqlarının bərpa olunması və yenidən iş həyatına qayıtması pozitiv hadisədir. Ekspertin sözlərinə görə, M.Mənsimov iş həyatında bacardığı qədər Azərbaycana yardımlar edib:** "Ölkəmizlə daim əlaqədə olub, tələbələrə maliyyə dəstəyi göstərib, insanlara yardım edib və s. M.Mənsimovun Azərbaycana bağlılığı göz önündədir. Yenidən iş başına dönməsi isə maliyyə problemlərinin həll olunmasında mühüm rol oynayacaq. Ona qarşı irəli sürülən ittihamların əsası olsaydı, suçlamalar təsdiqlənsəydi, yəqin ki, məhkəmə bu cür qərarlar verməzdi. Deməli, M.Mənsimova qarşı iddiaların ciddi sübutu olmayıb. Bu, hansısa maraqlar toqquşması çərçivəsində qurulan işə bənzəyir. Azərbaycanlı iş adamının bacarıqlı olduğunu nəzərə alsaq, qısa zamanda əvvəlki reputasiyasını və iş dövriyyəsini bərpa edəcəyini düşünürəm. Gələcəkdə Mübariz Mənsimov həm Türkiyənin, həm də Azərbaycanın biznes mühitində özünəməxsus yerini tutacaq".

**İsmayıl Qocayev**

# Mesaj təhlükəsizliyi zəif olan ölkələrə yönəlib



"ABŞ bununla demək istəyir ki, "mən olmasam dünya terrorla üz-üzə qala bilər"

"ABŞ-ın Əfqanıstandan çəkilmə prosesinin başlamasından sonra Əfqanıstanda vəziyyət yenidən gərginləşməyə başlayıb".
Bu fikirləri "Şərq"ə açıqlamasında politoloq Samir Hümbətov deyib.

O qeyd edib ki, ABŞ-ın bölgədən çəkilməsindən sonra "Taliban" silahlı qruplaşmasının bəzi regionları, həmçinin Bədəxşan vilayətini ələ keçirməsi Əfqanıstan Silahlı Qüvvələrinin mindən çox əsgərini Tacikistan ərazisinə çəkilmək məcburiyyətində qoyub: "Mövcud Əfqanıstan hökuməti ordu rəhbərliyinə qoşunların şəxsi heyətini qorumaq üçün Tacikistan ərazisinə keçmək əmrini verib. Tacikistan sərhədini keçən əfqan silahlı qüvvələrinin sayı artıq 1037 nəfər təşkil edir. Baş vermiş bu hadisə ilk dəfə deyil. Bundan öncə də dəfələrlə Əfqanıstan silahlı qüvvələrinin "Taliban" hərəkatının basqısı altında Tacikistana doğru hərəkət etmək məcburiyyətində olub. 22 iyun 2021-ci ildən bəri Əfqanıstan əsgərləri dördüncü dəfə Tacikistan sərhədini keçirlər, amma sonuncu dəfə ən çox sayda əsgərin Tacikistan sərhədini keçməsi müşahidə edilib. Tacikistan Sərhəd Mühafizəsinin əsgərləri baş verən hadisəni humanizm prinsipi əsasında qəbul ediblər. Rəsmi Düşənbə baş verən insidentlərin qarşısını almaq məqsədi ilə Tacikistan-Əfqanıstan dövlət sərhədinə əlavə 20 min hərbçisini səfərbər edir".

**Politoloq əlavə edib ki, son zamanlar sözügedən regionda baş verən proseslər sıradan hadisə kimi qəbul edilə bilməz və ciddi araşdırma tələb edən məsələlərdən biri kimi qəbul edilə bilər:** "ABŞ-ın Əfqanıstandan çəkilmə qərarından sonra baş vermiş hadisə təsadüfi hesab edilə bilməz. Bu məsələnin arxasında bir neçə ölkəyə siyasi mesajın olduğunu da demək mümkündür. Birincisi, ABŞ bununla Çinə mesaj vermək istəyir ki, əgər mən istəsəm sənin sərhədinə yaxın yerdə, xüsusilə də Şərqi Türkmənistana yaxın ərazidə terrorçu qruplaşmaların fəaliyyətinə fürsət yaratmaqla daima səni təzyiq altında saxlaya bilərəm. Eyni zamanda "Taliban" silahlılarının Əfqanıstanın nəzarətini ələ alması Çinin "Bir kəmər, bir yol" layihəsinin Mərkəzi Asiyadan keçən hissəsi üçün ciddi təhlükə kimi də qiymətləndirilə bilər. İkincisi, ABŞ Rusiyaya mesaj vermək istəyir ki, baxmayaraq ki, sən KTMT-ni əlində saxlayırsan, Əfqanıstanla daima səni Mərkəzi Asiyada təziq altında saxlamaq imkanına malikəm. ABŞ-ın digər mesajı isə kövrək təhlükəsizliyi olan ölkələrədir. ABŞ bununla demək istəyir ki, mən olmasam dünya terrorla üz-üzə qala bilər. Eyni zamanda Mərkəzi Asiyada gerçəkləşən və gerçəkləşməsi nəzərdə tutulan bir çox layihələrin təhlükəsizliyi də sual altına düşə bilər".

**Aynurə Pənahqızı**

## Albaniya Türkiyədən PUA alır



**Albaniya parlamenti Türkiyədə istehsal olunan pilotsuz uçuş aparatlarını (PUA) almaq üçün ölkənin Müdafiə Nazirliyinin büdcəsinə əlavə 8 milyon avro vəsait ayrılmasını təsdiqləyib.**

Ted.az bildirir ki, Albaniyanın Türkiyədən PUA alması barədə razılaşma bu ölkənin Baş naziri Edi Ramanın ötən ay Ankaraya səfəri zamanı əldə olunub.

Baş nazir Edi Rama bu razılaşma ilə bağlı fikirlərini belə ifadə edib ki, Albaniya hökuməti Türkiyə PUA-ları ilə yolları, sahil zolaqlarını, meşələri, ictimai asayişin mühafizəsini gücləndirmək niyyətindədir.

## İranda koronavirusdan ölənlərin sayı 85 mini keçib




**İranda ötən sutka ərzində yeni növ koronavirus (COVID-19) infeksiyasından 146 nəfər ölüb.**

APA-nın Tehran bürosunun xəbərinə görə, bu barədə İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyi məlumat yayıb.

Bununla da İranda koronavirusdan ölənlərin sayı 85 095 nəfərə yüksəlib.

Ölkədə ötən sutka ərzində 16 080 nəfər koronavirusa yoluxub və infeksiyaya yoluxanların ümumi sayı 3 286 923 nəfərə çatıb.



## Prezident qanunu imzalayıb

### Özbəkistanda hicab taxmağa icazə verilib

**Özbəkistan Prezidenti Şavkat Mirzoyev yeni redaksiyada "Vicdan və dini təşkilatların azadlığı haqqında" qanununu imzalayıb.**

"Report" "RİA Novosti"yə istinadən xəbər verir ki, sənədin mətni bu gün açıqlanıb.

Belə ki, qanun ictimai yerlərdə hicab taxılması və digər dini geyim geyilməsinə tətbiq edilən qadağanı ləğv edir, həmçinin dini təşkilatların qeydiyyatı prosesini asanlaşdırır. İndi dini təşkilatların fəaliyyətini yalnız məhkəmə qaydasında dayandırmaq mümkün olacaq.

*Qeyd edək ki, Özbəkistanda "Vicdan və dini təşkilatların azadlığı haqqında" qanun 1991-ci ildə qəbul edilib. Qanuna son dəyişikliklər 1998-ci ildə edilib. 2019-cu ildə Özbəkistan XİN qanunun yeni redaksiyasının hazırlanmasına beynəlxalq ekspertlərin, o cümlədən, BMT və ATƏT-dən mütəxəssislərin cəlb ediləcəyini bəyan etmişdi. ABŞ və Qərb ölkələri bu addımı rəğbətlə qarşılamışdılar.*

# "Bu xəstəlik deyil, əxlaqsızlıqdır"

*Əhəd Məmmədli: "Əlimizdən gələni edəcəyik ki, bu xəstəlik, virus Azərbaycana bulaşmasın"*



Son günlərdə dünyanın bir çox ölkəsində, o cümlədən qardaş Türkiyədə cinsi azlıqların cəmləşdiyi LGBT-nin aksiyaları, yürüşləri keçirilir. Avropa ölkələrindən fərqli olaraq İstanbuldakı aksiyaya polis müdaxilə edib və toplumun dəyərlərini alt-üst edən üzdəniraq qruplaşmanın sərbəst hərəkətinə imkan verilməyib. Qonşu Gürcüstanda da LGBT-nin yürüyüşü baş tutmayıb.

Yürüyüşdən öncə ultramillətçi təşkilatlar və Gürcü Pravoslav Kilsəsi bəyanat yayaraq, buna etiraz etdilər və Tiflisdə heç bir aksiyaya yol verməyəcəklərini bildirdilər. Hökumət əvvəlcə yürüyüşə icazə versə də, bir saat qalmış onların təhlükəsizliyini təmin edə bilməyəcəyini açıqladı və aksiya ləğv edildi. Bununla belə ultrasağçılar Tiflisdə etiraz mitinqi keçiriblər. Aksiyaya qatılanlar arasında kilsə keşişləri də yer alıb. Bir polyak jurnalist qulağında sırğa olduğu üçün LGBT nümayəndəsi güman edilərək bıçaqlanıb. Ölkədə baş verən insidenti xarici ölkə səfirlikləri, o cümlədən beynəlxalq təşkilatlar sərt tənqid ediblər. Müxalifət isə tənqidləri daha çox Baş nazir İrakli Qaribaşvilinin ünvanına yönəldərək, onu istefaya səsləyib. Prezident Salome Zurabişvili və Tiflis meri Kaxa Kaladze də baş verən zorakılıq hallarının qəbuledilməz olduğunu açıqlayıblar. Bununla bərabər İrakli Qaribaşvili yaranan insidentdə günahkarın Mixail Saakaşvili olduğunu iddia edib. Bəzi yerli ekspertlər isə dünən Tiflisdə baş verənləri Gürcü Pravoslav Kilsəsi ilə hökumətin ortaq addımı adlandırıb və bunun siyasi məqsədlər üçün istifadə ediləcəyini bildiriblər. Ən maraqlı açıqlamanı Gürcüstan Müsəlmanları İdarəsi verib. İdarə baş verən zorakılıq hallarını kəskin şəkildə pislədiyini, islamda zorakılıq olmadığını və statusundan, seçdiyi həyat tərzindən asılı olmayaraq, istənilən şəxsə qarşı zorakılıq aktının qəbuledilməz olduğunu bildirib. **AĞ Partiyanın sədr müavini, politoloq Əhəd Məmmədli "Şərq"ə açıqlamasında ilk növbədə Gürcüstan Müsəlmanları İdarəsinin məsələ ilə bağlı açıqlamasını yersiz və uyğunsuz hesab edib. Analitik vurğulayıb ki, dini qurumlar əxlaqsızlığı təbliğ edən şəxslərə münasibətdə fərqli mövqe sərgiləməlidir:** "Sabah Bakıda belə cəhd olsa, Qafqaz Müsəlmanları İdarəsi nə deyəcək? Geylərin yürüyüş keçirməsini normal qəbul edəcəklər? Gürcüstandakı dini idarənin mövqeyi biabırçı yanaşmadır və islam adına rüsvayçılıqdır. LGBT-nin dünyanın müxtəlif ölkələrində himayədarları var. Həmin dairələr onları maliyyələşdirir, geniş yayılmalarına, sərbəst hərəkət etmələrinə imkan yaradırlar, meydan verirlər. Cinsi azlıqları digər insanlara "təbii", "normal" durum kimi sırımağa çalışırlar. Buna qətiyyən yol vermək olmaz. Gürcüstandakı etiraz aksiyasını və kilsənin cinsi azlıqlara qarşı çıxmasını müsəlman olaraq dəstəkləyirəm. Amma Gürcüstan Müsəlman İdarəsinin açıqlamasını bir müsəlman kimi hiddətlə qarşılayıram. Ümid edirik, Azərbaycanda cinsi azlıqların yürüyüş cəhləri olmayacaq. Partiyamızın mövqeyi konkretdir. GBT-ni ümumiyyətlə qəbul etmirik. Milli, dini-mənəvi dəyərlərimizə ziddir. İddia edilən kimi bu bir xəstəlik deyil, əxlaqsızlıqdır. Əlimizdən gələni edəcəyik ki, bu xəstəlik, virus Azərbaycana bulaşmasın".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# Biz Qarabağı, Qarabağ da bizi dirçəldəcək

### *Ölkənin iqtisadi inkişafı üçün bölgələrimizin sərvətlərindən maksimum yararlanmalıyıq*

30 ilə yaxın işğal altında olan doğma torpaqlarımızı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında müzəffər ordumuz, rəşadətli əsgərlərimiz erməni tapdağından azad etdi. Bununla da xalqımıza tarixi zəfərdən doğan əvəzsiz qürur hissi yaşatdılar. Azərbaycanımızın üzləşdiyi, qarşı-qarşıya gəldiyi düşmən isə hədsiz qəddar, nankor, dağıdıcı, ziyanverici, vəhşi idi.

Bunu cənab Prezident çıxışlarında dəfələrlə vurğulayıb. Hər dəfə işğaldan azad edilmiş hansısa bölgəyə səfərləri zamanı, cənab Prezident də, bu səfərlərdə daim onunla yanaşı addımlayan ölkənin birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da gördükləri acı mənzərədən necə mütəəssir olduqlarını dilə gətirib, dağıdılmış, viran edilmiş yurd yerlərimizin, şəhərlərin, kəndlərin görüntülərini paylaşıblar. Artıq bütün dünya erməni vandalizminə şahiddir. Bu günləri erməni vandallarının xarabazara çevirdikləri tarixi yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi Azərbaycanın qarşısında duran ən mühüm vəzifədir. Dövlətimizin başçısı hər bir məsələdə olduğu kimi, bu istiqamətdə də aydın planlara, strateji hədəflərə malikdir.

Mövzu ilə bağlı ”Şərq”ə açıqlama verən iqtisadçı-ekspert Rauf Qarayev bildirib ki, Qarabağ zonasının ilk növbədə bərpası üçün mütləq şəkildə ərazilər minalardan təmizlənməlidir. O vurğulayıb ki, hazırda dövlət tərəfindən bu addımlar atılmaqdadır: ”Bildiyiniz kimi, ermənilər bir çox rayonlarımızı viran günə qoyublar. Bu səbəbdən də həmin rayonların infrastrukturu bərpa edilməlidir. Hesab edirəm ki, həmin rayonlarda erməni vandalizmini nümunə göstərən açıq muzey yaradılmalıdır. Bu muzey həm turistlər, həm də gələcək nəsil üçün bir yadigar olaraq qalacaq. Hazırda bununla bağlı ölkə prezidenti də məsələ qaldırıb. Səhv etmirəmsə, Ağdamda üstü açıq muzeyin yaradılması planlaşdırılıb”.

R.Qarayev qeyd edib ki, Qarabağda hər bir rayonun özünəməxsus xüsusiyyəti var: ”Misal üçün, Kəlbəcər isti sular, təbii ehtiyatlar mənbəyidir. Bundan əlavə dağ turizmi, yay turizmi, qış turizmi, kurort-sanatoriya, müalicəvi sanatoriya üçün bura əlverişli yerdir. Kəlbəcərdə heyvandarlıq üçün də kifayət qədər yaylaq var. Füzuli isə qədim rayonlardan biridir. Baxmayaraq ki, 1827-ci ildə inzibati ərazi vahidi kimi yaradılıb. Hesab edirəm ki, Füzulinin bu qədimliyi və tarixi ənənələri imkan verir ki, orada mədəniyyət mərkəzləri inkişaf etdirilsin. Bu da gələcəkdə mədəniyyət sahəsində, necə ki, əvvəllər də olub, tarixi şəxsiyyətlərin yetişməsinə zəmin yaradacaq. Ağdam rayonu da iqtisadi baxımdan Qarabağ zonasının lokomotivi olub. Hələ sovetlər birliyində qeyd olunurdu ki, o, ticarət dövriyyəsinə görə ən öndə gedən rayonlardan biridir. Buna görə də ölkədə xaricdən gətirilən bir çox əmtəə məhsullarını Ağdamda tapmaq mümkün idi. Hətta bir çox zavodlar da orada yerləşib. Hesab edirəm ki, həmin zavodları yenidən bərpa etmək olar. Bundan əlavə, orada Texniki Universitetin filialını açmaq da yaxşı olardı. Çünki buradakı mütəxəssislər də bölgəyə xeyli xeyir verə bilərlər. Bundan əlavə İnşaat-Memarlıq Universitetinin də filialının Ağdamda açılmasını məqbul hesab edirəm”.



İqtisadçı-ekspert əlavə edib ki, Şuşa, Zəngilan, Qubadlı, Laçın, Cəbrayıl rayonları da kənd təsərrüfatı, turizm və mədən sənayesi üçün mühüm əhəmiyyətli bölgələrimizdəndir: ”İşğaldan azad olunmuş torpaqlarımızın həm təbii resurslarından, həm coğrafi mövqeyindən, həm bol suvarma üçün yararlı torpaqlarından və suvarma imkanlarından aqrar sahədə, kənd təsərrüfatında, turizmdə və bir çox başqa sahələrdə istifadə etmək mümkündür. Gələcəkdə hesab edirəm ki, Azərbaycan bu bölgədən geniş istifadə etməklə bir çox sahədə uğur əldə edəcək. Tikinti materiallarının satışında, mədənçilik sahəsində, hətta deyərdim, hərbi avadanlıqların istehsalında belə bu bölgə öz təhlükəsizliyini təmin edə bilər. Çünki nə vaxta kimi düşmən bizim ərazi bütövlüyümüzü tanımayıb, hərb sahəsində qərb qapımızı güclü nəzarətdə saxlamalıyıq. Sülh olsa belə, düşmənimizin kim olduğunu unutmamalıyıq. Çünki tarix daim təkrarlanır. Təkrarlananda faciələrimizin baş verməməsi üçün bütün sahələr üzrə inkişaf etməliyik. Buna Azərbaycan xalqının igidliyi, elmi və təbii sərvətləri nümunədir”.

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Bir az gözləməliyik

### *Bütün ehtimallara qarşı ehtiyatı əldən vermək olmaz*

Türkiyədə koronavirusun "Delta plus" ştamı da tapıldı. Səhiyyə naziri Fəxrəddin Qoca ölkənin 3 bölgəsində, o cümlədən İstanbulda "Delta plus" ştammına yoluxma faktının qeydə alındığını açıqlayıb. "Delta" ştammına yoluxma sayının 284-ə yüksəldiyini, artıq 30 bölgədə qeydə alındığını deyib.

”Koronavirusun ”Delta” ştamının Azərbaycana gəlmə ehtimalı var”. Bu fikirləri isə TƏBİB-in İdarə Heyəti yanında Tibbi-elmi Komitənin sədri, professor Akif Qurbanov AZƏRTAC-a açıqlamasında bildirib: ”İki ay bundan öncə Hindistandan birbaşa və ya əvvəl sözügedən ölkədə olub, ikinci ölkədən Azərbaycana gələn vətəndaşlar sərhəddə təkrar COVİD-19 testindən keçib, 14 gün ərzində özünütəcrid rejimində gözləməlidir. Bu kimi tədbirlər ”Delta” və ya ”Delta+” ştamlarının ölkəmizə gəlməyinin qarşısını ala bilər. Buna baxmayaraq digər ölkələrlə təcrid olunmadığına görə, ”Delta” ştamlarının Azərbaycana gəlmə ehtimalı var”.

Bundan əvvəl də TƏBİB, əhalinin ”Delta” ştamı ilə bağlı narahatlığını nəzərə alaraq açıqlama verməşdi ki, koronavirusun müxtəlif ştamlarının müəyyənləşdirilməsi istiqamətində ölkəmizdə mütəmadi tədqiqatlar aparılır. Tədqiqatların nəticəsinə görə, bu günə kimi ölkədə ”Hindistan ştammı” (Delta) rəsmi şəkildə qeydə alınmadığı müəyyən olunub. Bununla belə, TƏBİB epidemioloji vəziyyət nəzərə alınaraq, müvafiq sanitariya və gigiyena qaydalarına riayət olunmasını tövsiyə edir. Qeyd olunur ki, koronavirusun ”Hindistan ştammı”na indiyədək dünyanın 80-dən çox ölkəsində rast gəlinib. Bu ştamm artıq qonşu Gürcüstanda da qeydə alınıb. Və ölüm halları da var. ”Hindistan ştammı” koronavirusun digər ştamlarına nisbətən daha sürətlə yayılması ilə fərqlənir. Eynilə Böyük Britaniya ştammı kimi. Mütəxəssislər COVİD əleyhinə tətbiq olunan vaksinlərin eyni qaydada bu ştamma qarşı da effektiv olduğunu bildirirlər. Lakin ”Delta”nın Azərbaycana qonşu və daha sıx təmasda olduğumuz ölkələrdə getdikcə çox yayılması təhlükənin yaxında olduğu qənaəti yaradır. Məlum olduğu kimi qardaş Türkiyədə ”Delta” və ”Delta plus” ştamlarının mövcudluğu rəsmən təsdiqlənib. Türkiyə Səhiyyə naziri Fəxrəddin Qoca qeyd edib ki, ölkənin 30 bölgəsində bu ştama yoluxma faktları qeydə alınıb. Yoluxma sayı 224-dən 284-ə yüksəlib. Koronavirusun ”Delta” ştammı daha çox böyük şəhərlərdə və əsasən İstanbulda qeydə alınıb. Nazir ”Delta” variantının Rusiyadan gələn turistlərdə də çox müəyyən edildiyini deyib və bu səbəbdən sərt tədbirlərə əl atıldığını vurğulayıb: ”Hər vətəndaşdan, o cümlədən Rusiyadan gələnlər də daxil, 48 saat və ya 72 saat əvvəldən antigen və ya digər testlər alınır, lakin bunu yetərli saymırıq. Və seçmə üsulu ilə vətəndaşlardan test nümunələri alınır. Əgər ”Delta”ya yoluxma sayında sıçrayış olduğu təsbit edilərsə, hansı sərt karantin tədbirlərinə əl atılacağı bəllidir”.



**"Delta" ilə bağlı şayiələr də çoxdur. Bu ştammın tam elmi sübutu hələ yoxdur"**

Həkim-infeksionist Mərdan Əliyev ”Şərq”ə açıqlamasında qeyd etdi ki, ”Delta”nın Azərbaycana xaricdən gəlmə ehtimalı var: ”Ona görə də ölkəyə səfər edənlər, başqa bir ölkəyə gedib təkrar Azərbaycana qayıdanlar, xarici ölkələrdən Vətənə dönənlər dönüş sonrası ciddi yoxlanmalıdır. Yaxma testinin alınması məsləhətdir, bundan əlavə yaxşı olar ki, həmin şəxslər 14 gün nəzarət altında olsunlar. Heç olmasa, minimum 10 gün. Təyyarə reysləri məhdudlaşdırılmalı, ölkəyə gəliş-gedişə məhdudiyyətlər qoyulmalıdır. Məhz ”Delta” ştammı təhlükəsini nəzərə alaraq Türkiyə bir sıra təyyarə reyslərini müvəqqəti dayandırıb. Biz də bu növ qabaqlayıcı tədbirlər həyata keçirməliyik”.

**M.Əliyev bildirdi ki, ”Delta” ştammı ”Covid”in Böyük Britaniya variantı kimi sürətlidir - yoluxma sürəti böyükdür, lakin ”Delta”nın patogenliyi B.Britaniya variantından daha ağırdır:**

- ”Delta”ya ”Hindistan” ştammı da deyilir, çünki ilk dəfə məhz bu ölkədə tapılıb. Amma ”Delta” B.Britaniya variantından ağır - demək olar, 60 faiz daha ağır ştammdır. ”Delta” ilə bağlı şayiələr də çoxdur. Bu ştammın tam elmi sübutu hələ yoxdur. Vaksinlərlə bağlı da müxtəlif rəylər verilir. Vaksin istehsalçılarının hərəsi öz vaksinini tərifləyir və ”Delta” ştammına qarşı effektiv olduğunu deyir. Lakin bunlar da hələ sübut olunmayıb. Ona görə də ən doğru yol, karantin qaydalarına ciddi riayət etmək, yoluxma sayının azalmasına güvənib riskə getməməkdir. Bir az gözləməliyik. Bu ştamm haqqında elmi tədqiqatlar dəqiqləşsin, yoluxduruculuğu, xəstəliyin gedişatı barədə aydın elmi təhlillər ortaya qoyulsun, sonra arxayınlaşaq. Tövsiyəm budur ki, əhali özünü qorusun. Hər ehtimala qarşı ehtiyatı əldən verməməliyik.

**Məlahət Rzayeva**

# Heç kim unudulmur...

## "Şəhidlər bulağı" kəndin and yerinə çevrilib





1980-ci illərin axırlarında SSRİ-nin dağılacağına duyuq düşən mənfur qonşularımız özlərinin əsl simalarını yenidən göstərdilər. Ötən əsrdən başlayaraq Azərbaycan əsassız ərazi iddiaları irəli sürən ermənilər keçmiş İrəvan xanlığı və ozamankı Sovet Ermənistanı ərazisindən Azərbaycan türklərini son nəfərinədək deportasiya etdilər, Qarabağ və ətraf ərazilərdə iğtişaşlara başladılar. Faciə xalqı sarsıtdı, amma sındırmadı. Xalq daha möhkəm birləşdi, azğınlara, hakimiyyət hərislərinə, işğalçılara qarşı qəzəb, hiddət əks təsirə çevrildi.

### Burada Vətən savaşında canlarını fəda etmiş qəhrəmanlarımız uyuyur



Azərbaycanın hər yerindən könüllü dəstələri Qarabağa yollandı. Bizim kəndimizin ərazisindən də gənclər azğın düşmənə cavab verməyə getdilər. Qanlı Yanvar hadisələrində olduğu kimi, bu döyüşlərdə də şəhidlərimiz oldu, onlar heç unudulmadı. Ərazidəki məktəblərə onların adı verildi, qəbirləri düzəldildi, məktəblilər tərəfindən, dini bayramlarda öz ölülərini yad etməyə gələn bütün yaşlılar tərəfindən ziyarət olundu, dualar oxundu. Bu müharibədə biz məğlub ölkə olduq. Daxildə gedən çəkişmələr, ermənilərin havadarlarının çoxluğu bizi məğlubiyyətə uğratdı.

Azərbaycan belə bir düşmənə qarşı güclənməli idi. Görkəmli siyasətçi, ümummilli lider Heydər Əliyevin yaratdığı təməl üzərində onun davamçısı İlham Əliyev ordumuzu inkişaf etdirdi. Silahlı Qüvvələrimiz yeni texnikaya yiyələndi, döyüş texnikası artırıldı. Xalqımızda qələbəyə inam, ruh yüksəkliyi qüvvətləndi. Nəhayət, qisas günü gəlib çatdı. Hər yerdə olduğu kimi, bizim kəndimizdən də qorxmaz oğullar cəbhəyə yola düşdülər. 44 günlük müharibə zəfərlə bitdi. Azərbaycan övladlarının çiyinlərindən elə bil gözəgörünməz bir ağır yük götürüldü. Hamı azad nəfəs aldı. 44 gün ərzində qələbə xəbərləri ilə yanaşı, ağır da olsa, şəhid xəbərləri də gəlirdi. Bu günlərdə kənd sakinlərimiz iki acı xəbər aldı. Döyüşən igidlərimizdən İsmayıl Məmmədovun, ondan beş gün sonra Ülvi Məmmədovun şəhid olması xəbəri təkcə valideynlərini deyil, bir ailə kimi yaşayan bütün kənd əhlini sarsıtdı. Lakin bu acı xəbərin içərisində bir qürur, fəxr də var idi. Bu oğullar vətəni necə sevməyi biz dirilərə nümunə göstərirdi. Qarabağ uğrunda üçüncü müharibə qələbə ilə başa çatdı. Sanki atalar üçdən deməşdi.

Bu günlərdə - Silahlı Qüvvələr gününün səhəri kənd camaatı uşaqlı-böyüklü kəndin mərkəzinə toplaşdı; açılış olacaqdı. Kəndimizdən olan 20 Yanvar və son iki Qarabağ müharibələrinin 8 şəhidinin şərəfinə "Şəhidlər bulağı"nın açılışı idi. Bu sevincə şərik olaraq kəndimizdən kənarda, Qubada, Xaçmazda, Bakıda yaşayanlarımız da tədbirdən xəbər tutub gəlmişdilər. Hamı şəhidlər qarşısında özünü borclu bilirdi. Əhalisinin say nisbəti nəzərə alınanda Yerfi ərazi inzibati vahidliyi ən çox şəhid vermiş kəndlərdəndir

"Şəhidlər bulağı"nın yeri təsadüfi də olsa, sanki düşünülərək seçilmişdi. Bu yoldan ötən kənd camaatı yüz ildən çoxdur ki, buraya çatanda ayaq saxlayır, ya bir salavat verir, ya da dua oxuyur. Çünki burda, hasarın içərisində, ərik ağacının altında XIX əsrin ikinci yarısında yaşamış nurani bir şəxs, Hacı İbrahim Əfəndi uyuyur. Bu gündən isə onun yanında tikilmiş "Şəhidlər bulağı" bu yeri daha da müqəddəsləşdirdi. Artıq bütün kənd əhli bilir ki, bu yer məktəblilərimiz, hərbi xidmətə gedənlərimiz, hərbidən qayıdanlarımız, eləcə də hər bir kənd sakini üçün and yerinə çevriləcəkdir. Müstəqilliyimizin tarixində Birinci Qarabağ müharibəsi və onun şəhidləri, iştirakçıları unutdurulubsa da müstəqilliyimizin bərpasından sonrakı iki müharibənin şəhidləri, hətta qaziləri, iştirakçıları belə unudulmayacaq. Vətənimizin Silahlı Qüvvələri daha da güclənəcək, dünyada bizim haqq işimizi müdafiə edənlər çoxalacaq, biz isə "Qarı düşmən dost olmaz" məsəlini bir daha unutmayacağıq.

**Tahir HƏSƏNLİ,**
**Quba rayonu, Yerfi kəndi.**

## Bölgəyə istirahətə gedənlər narazıdır

### Yumşalmadan sonra sahibkarlar qiymətləri bahalaşdırıblar



Daxili turizmi inkişaf etdirmək üçün vətəndaşların məmnunluğu əsas şərtdir

**"Karantin qaydaları yumşaldıqdan sonra dincəlmək üçün bölgələrə getmək istəyənlərin sayında ciddi artımlar müşahidə edilir.**

Monitorinqlər göstərir ki, bölgələrimizdə olan turizm obyektləri qiymətləri pandemiyadan əvvəlki dövr ilə müqayisədə xeyli yüksəldiblər. Bu isə məzuniyyətlərini rayonlarda keçirmək istəyənlər üçün ciddi çətinliklər yaradır".

Bunu Milli Məclisin deputatı Vüqar Bayramov "Şərq"ə açıqlamasında bildirib. Onun sözlərinə görə, turizm xidmətlərində qiymət artımlarının səbəbləri iqtisadi baxımdan aydın olmasa da, bir sıra sahibkarların pandemiyadan sonra "daha qısa zamanda daha çox gəlir" əldə etmək prinsipi ilə işləyəcəyi danılmazdır.

Deputat vurğulayıb ki, inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, turizm gəlirlərinin əhəmiyyətli hissəsi daxili turizmin payına düşür: "Avropa İttifaqında turizm gəlirlərinin 80 faizi daxili turizm hesabına formalaşır. Amma bizdə qiymətlərin yüksəlməsi daxili turizmdə imkanları xeyli məhdudlaşdırır. Bir tərəfdən, sahibkarların qiymətləri artırmaması, əksinə, optimallaşdırması üçün daha çox təşviqedici və maarifləndirici tədbirlərin həyata keçirilməsi vacibdir. Digər tərəfdən, turizmdə çalışan sahibkarların xərclərinin azaldılması üçün bir sıra Mərkəzi Şərqi Avropa ölkələrində olduğu kimi vergi güzəştləri də daxil olmaqla xüsusi güzəştlərin tətbiqi məqsədəuyğun olardı. Eyni zamanda, qonşu Türkiyədə olduğu kimi ötən əsrin 80-90-cı illərində subsidiyaların verilməsi mexanizminin tətbiqi mümkündür. Bununla da bu sektorda çalışan sahibkarların xərclərinin azaldılmasına nail olmaq mümkündür".

**V.Bayramov əlavə edib ki, bütün bunların fonunda sahibkarların süni şəkildə tələbin artmasını nəzərə alaraq qiymətləri yüksəltməmələri də vacibdir:** "Doğrudur, tələb artanda əksər hallarda qiymətə təsir edir. Turizm spesifik sahə olduğu üçün burada qiymətlərin əlçatan olması vacibdir. Dövlət tərəfindən bu istiqamətdə təşviq mexanizmlərinin genişləndirilməsi, eyni zamanda sahibkarların da korporativ sosial məsuliyyətə uyğun olaraq, daha optimal qiymət təklif etməsinə ehtiyac var ki, vətəndaşlar, xüsusən yay mövsümündə daxili turizmdən faydalana bilsinlər".

**Aynurə Pənahqızı**

# "Bizim gürcülərlə ortaq nöqtələrimiz çoxdur"

*Nəriman Əbdürrəhmanlı: "Onları reallaşdırmaq, birgə layihələr həyata keçirməyin zamanı çoxdan çatıb"*



Mədəniyyət naziri Anar Kərimov Gürcüstana səfəri çərçivəsində bu ölkənin mədəniyyət, idman və gənclər naziri Tea Tsulukiani ilə görüşüb. Görüşdən sonra mətbuat üçün keçirilən birgə brifinqdə A.Kərimov bildirib ki, Azərbaycan Gürcüstanla mədəniyyət sahəsində əməkdaşlığı daha da gücləndirmək niyyətindədir.

Nazirin sözlərinə görə, Azərbaycan və Gürcüstan arasında mədəni əməkdaşlıq sahəsində yeni səhifə açılacaq. A.Kərimov gürcüstanlı həmkarı ilə faydalı görüş keçirdiyini bildirib: "Görüşdə hər iki ölkənin mədəni irsinin qorunması, muzey, kino, yaradıcı sənayelər sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb". Nazir Gürcüstana rəsmi səfərinin iki ölkə arasında əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyinə əmin olduğunu vurğulayıb.

**Yazıçı-publisist, Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvü Nəriman Əbdürrəhmanlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, mədəniyyət nazirinin təkliflər paketində nələr olduğunu bilmir, lakin Azərbaycanla Gürcüstan arasında mədəni sahədə əməkdaşlıq üçün kifayət qədər imkanlar var:**

- Azərbaycanla Gürcüstan o qədər yaxın, bir-birilə dost ölkələrdir ki, mədəni əlaqələr hazırkı səviyyədə qalmamalıdır. Daha da genişlənməli, şaxələnməlidir. Azərbaycan Türkiyə ilə qardaş, dost ölkə olduğu kimi, Gürcüstanla da ən yaxın, dost dövlətdir. Belə olduğu halda mədəniyyət sahəsində əməkdaşlıq da yüksək səviyyədə olmalıdır. Tbilisidə Azərbaycan Dövlət Teatrı var. Truppası, aktyorları... Lakin teatrın binası uzun illərdir ki, qəza vəziyyətindədir. Və bu, daim narazılıq yaradır. Mərhum prezidentimiz Heydər Əliyev Tiflisə səfər edəndə məsələni qaldırdı, sonra ora mütəxəssislərdən ibarət nümayəndələr göndərildi ki, məsələ araşdırılsın. Teatrın dövlət statusu saxlandı, lakin bina hələ də qəzalı vəziyyətdədir. Gürcüstan hökuməti teatra vəsait ayırır, lakin bu, cüzidir. Gərək məsələ qaldırılsın, teatrın binası bərpa olunsun ki, teatr öz binasında fəaliyyətini davam etdirə bilsin. Bundan başqa, kino, rəngkarlıq, musiqi, televiziya sahəsində birgə layihələr icra edilə bilər. Gürcüstanda bizim çox istedadlı rəssamlarımız, fotoqraflarımız var. Onların Bakıda sərgilərini təşkil etmək olar. Birgə kitab layihələri, tv-layihələr həyata keçirmək olar. Gürcüstan dövləti ərazisində 500 mindən artıq Azərbaycan türkü yaşayır, Azərbaycanda isə 10 min gürcü - inqiloy. Azərbaycanlılar gürcü mədəniyyətinə inteqrasiyada böyük rol oynadıqları kimi, burdakı inqiloylar da bizim mədəniyyətə öz töhfələrini verirlər. Bizim gürcülərlə mədəniyyət sahəsində birgə, ortaq nöqtələrimiz çoxdur. Onları reallaşdırmaq, birgə layihələr həyata keçirməyin zamanı çoxdan çatıb. Bu işlər təkcə nazirlərdən asılı deyil, ziyalılardan, ictimai xadimlərdən, ümumilikdə cəmiyyətdən asılıdır.

**Məlahət Rzayeva**

# Heç bir məktəb rəhbəri təkbaşına qərar verə bilməz

*Vahid məktəbli formaları üçün hər bir məktəbin pedaqoji şurası təkliflər hazırlamalıdır*



Məktəblilər üçün yeni geyim nümunələri təsdiq üçün təqdim edilib. Bu barədə Təhsil Nazirliyindən bildirilib. Rəsmi məlumata görə, həmin təsvirlər təsdiq edildiyi təqdirdə ictimaiyyətə bildiriləcək. Bununla belə qeyd edilib ki, yeni geyim forması təsdiq olunduqdan bir müddət sonra da hazırda qüvvədə olan məktəbli formaları da istifadədə qalacaq.

**Təhsil eksperti Kamran Əsədov mövzu barədə "Şərq"ə açıqlama verib. O qeyd edib ki, ölkəmizdə məktəbli forması ənənəsi kütləvi şəkildə sovetlər dövründə tətbiq edilməyə başlayıb:** "Nazirlər Kabinetinin 2011-ci il tarixli qərarı ilə təsdiq edilən Ümumtəhsil Məktəblərinin Nümunəvi Nizamnaməsinə əsasən, orta təhsil alanların geyim forması hər məktəbin öz nizamnaməsi ilə müəyyən olunurdu. Yəni hər məktəb öz şagirdləri üçün vahid geyim forması tətbiq edə bilərdi. Həmin prosesə nəzarət də elə məktəbin özü tərəfindən həyata keçirilirdi. Amma Prezident İlham Əliyevin imzaladığı "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" fərmana əsasən dövlət ümumi təhsil müəssisəsində təhsilalanlar üçün vahid geyim formaları tətbiq edilməlidir. Belə ki, Təhsil Nazirliyi tərəfindən 4-5 vahid məktəbli geyiminin formaları təsdiqlənəcək və təhsil müəssisələri yalnız bu geyimlərdən istifadə edə biləcəklər".

**K.Əsədov əlavə edib ki, ümumtəhsil məktəblərində şagirdlər üçün vahid formada məktəbli geyiminin tətbiqi uzun illərdən bəri təhsil sistemində mütərəqqi ənənələrdən biri olub**: "Maddi imkanlarından asılı olmayaraq, bütün şagirdlərin məktəbə eyni geyimdə gəlməsi sosial bərabərliyin real nümunələrindən biri kimi həmişə bəyənilib. Məktəblilərin mənəvi tərbiyəsinə, təlimin demokratik əsaslarda qurulmasına müsbət təsir göstərib. Respublikamızın, habelə yaxın və uzaq xarici ölkələrin bu sahədəki təcrübəsi göstərir ki, məktəbli forması təhsil aldıqları müəssisədə, eyni zamanda ictimai həyatda şagirdlərin öz fəaliyyətlərinə və davranışlarına məsuliyyətlə yanaşmalarında, cəmiyyətdə özlərinə qarşı hörmət və rəğbət hissi oyadılmasında, bütövlükdə məktəbin nüfuzunun qaldırılmasında əhəmiyyətli rol oynayır. Bu gün ölkəmizdə fəaliyyət göstərən 4472 orta məktəbində təhsil alan 1.6 milyon şagirdin hər biri vahid məktəbli forması ilə tədris prosesinin iştirakçısına çevrilir. Amma bu o demək deyil ki, bütün məktəblər eyni məktəbli formasından istifadə etməlidir. Hər bir məktəbin pedaqoji şurası qərar qəbul edib təklif edilmiş 4-5 layihədən istədikləri dizaynda forma müəyyən edə bilərlər. Yəni ayrı-ayrı məktəblər üçün material və dizayn baxımından fərqli geyim formasının mövcud olması mümkündür və bu barədə məhdudiyyət yoxdur. Bir vacib məqamı qeyd edim ki, məktəbli formasının tətbiqi barədə tədbirlər hər bir məktəb üzrə bilavasitə valideyn komitəsinin, məktəb-valideyn assosiasiyasının, şagird özünüidarə təşkilatının iştirakı ilə müzakirə edilib müvafiq qərar qəbul olunduqdan sonra qəbul edilə bilər. Heç bir məktəb rəhbəri bununla bağlı təkbaşına qərar qəbul edə bilməz".

**Təhsil eksperti vurğulayıb ki, rayonlarda məktəbli formasından istifadə ilə bağlı müəyyən çatışmazlıqlar var:** "Bu da hava şəraiti ilə bağlıdır. Belə ki, valideynlər soyuq havalarda məktəbli formaları nazik olduğu üçün uşaqlar üşüyürlər, onlara soyuq olur. Ona görə də daha çox qış aylarında bu hal baş verir. Hesab edirəm ki, məktəbli formaları iqlim və hava şəraitinə görə təşkil olunsa, ondan istifadə ilə bağlı problem olmaz. Digər tərəfdən isə geyimlərin tikilməsi ilə Bakı Tikiş Evi (BTE) məşğul olmamalıdır. Bu, keyfiyyətə ciddi təsir göstərə və rəqabət mühitini aşağı sala bilər. Ona görə də Təhsil Nazirliyi 4-5 eskizi müəyyən edib ictimaiyyətə təqdim etməli və məktəblərə göndərməlidir. Onun standartlara uyğun olaraq tikilməsini valideynlər ya fərdi qaydada, ya kollektiv şəkildə, ya da ki, məktəblə birlikdə həyata keçirməlidirlər".

**Aynurə Pənahqızı**

## Kənd yerlərində qızlar çox əlacsızdır

Təhsili olmadığına görə cavan-cavan gəlinlər qurban gedir



**Şamaxı rayonunda hamilə qadın intihar edib. Hadisə Qaleybuğurt kəndində qeydə alınıb. 2001-ci il təvəllüdlü Quliyeva Səkinə Sədrəddin qızı yaşadığı evin həyətində yerləşən tövlədə özünü asıb.**

Məlumata görə, S.Quliyeva dörd aylıq hamilə olub. Faktla bağlı Şamaxı Rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.

**Baş verənlərlə bağlı "Şərq"ə danışan yazıçı-jurnalist Türkan Turan bildirib ki, 2021-ci il olsa da, hələ cəmiyyətimizdə "gəlinliklə getdiyin evdən kəfənlə çıxacaqsan" düşüncəsi hökm sürür:**

"Artıq neçənci intihar hadisəsidir ki, övladı olan və ya hamilə qadınlar intihar edir. Bu hadisələr adi hal alıb. Belə halların kökündə təhsilsizlik dayanır. Qadın fikirləşir ki, valideynləri ər evindən yalnız kəfənlə çıxmalı olduğunu deyiblər, ərin yanında qala bilmir, özü isə sərbəst şəkildə öz ayaqları üzərində dura bilmir. Böyük ehtimalla intihar edən qadın hansısa peşə sahibi deyil. Ona görə qız uşaqlarının təhsil alması çox önəmlidir. Ümumiyyətlə, buna bənzər nə kimi problemlər baş verirsə, hamısı qızların təhsilsizliyindən doğur. Hələ də valideynlərin düşüncəsi dəyişməyib. Bir ana və ata niyə övladının arxasında dayanmasın ki? Övladlarının ölümünə razı olurlar, amma boşanmasına yox. Rayon yerlərində vəziyyət isə daha acınacaqlıdır. Bakıdakı qadınlar heç nə bacarmasalar da, ali təhsilləri olmasa da, gedib qab yumaqla pul qazanıb çətinliklə olsa da, ayaqda qalırlar. Kənd yerlərindəki qadınlar isə tamamilə əlacsızdır. Milli mentalitet ailələrimizi tamamilə məhv edir, insanların həyatı bahasına başa gəlir".

**Yeganə Bayramova**

# "Artıq çox az vaxt qalıb"

## Elçin Bayramlı: "Kür çayında su kritik həddə azalıb, kiçik çaylar quruyub"

Bu il Ermənistanda quraqlıq təhlükəsi var. Bunu ekoloq Karina Danielyan bildirib. Danielyan Ermənistan Baş nazirinin səlahiyyətlərini icra edən Nikol Paşinyanın qurumlararası komissiyanın yaradılması haqqında qərarını da məhz bununla izah edib. Paşinyanın qərarı ilə Ermənistanda mümkün quraqlıq və ya su azlığı, onların nəticələrinin aradan qaldırılması və ya azaldılması ilə bağlı koordinasiya işləri üçün qurumlararası komissiya yaradılıb.

"Quraqlıq təhlükəsi yalnız bizdə deyil, bütün dünyada var. Lakin təbii-iqlim risklərini nəzərə alsaq, biz bu problemə daha çox diqqət ayırmalıyıq. Problem, həqiqətən də ciddidir", - deyə Danielyan bildirib.

Onun sözlərinə görə, Ermənistanın su anbarlarında olan suyun həcmi narahatlıq doğurur. Su anbalarında suyun az olmasının səbəbi isə müxtəlifdir. Ekoloqun fikrincə, bu, ilk növbədə mövsümün quraq keçməsi ilə bağlıdır: "Bundan əlavə, su anbarlarında olan su qanunsuz olaraq istifadə olunur. İnsanlar istifadə olunan suya görə ödəniş etməmək üçün müxtəlif yollara əl atırlar".

Kimsəyə sirr deyil ki, təkcə Ermənistanda yox, ümumiyyətlə, Cənubi Qafqazda su qıtlığı var. Gələcəklə bağlı proqnozlar heç də arzuolunan deyil.

**"Altay" Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı bu barədə "Şərq"ə danışıb:** "Neçə vaxtdır həyəcan təbili çaldığımız problem yaxınlaşmaqdadır. Əksər ölkələr, hətta su ehtiyatı bol olan Ermənistan belə qabaqlayıcı tədbirlər görməyə çalışır. Beynəlxalq ekoloji tədqiqat mərkəzləri, alimlər uzun illərdir qlobal quraqlıq baş verəcəyini deyirlər. Son illərdə artıq bunun əlamətləri özünü çox ciddi büruzə verir.

Azərbaycan dünyada əhalisinə və ərazisinə görə içməli su ehtiyatının az olduğu ölkələrdəndir. Cənubi Qafqazın ərazisinin yarıya yaxınını təşkil etməyimizə baxmayaraq, içməli su ehtiyatının yalnız 15 faizi bizim payımıza düşür. Azərbaycanda ümumi su ehtiyatı 31, Gürcüstanda 63, Ermənistanda 8 kubkilometrdir.

Yerli su ehtiyatlarına gəlincə, ölkəmizdə 10.3, Gürcüstanda 53.6, Ermənistanda 6.5 kubkilometr yerli su ehtiyatı var ki, bunun bir il ərzində hər bir nəfərə düşən hissəsi Azərbaycanda 1.03, Gürcüstanda 13.7, Ermənistanda isə 2.2 min kubmetrdir. Göründüyü kimi, biz Gürcüstana nisbətən daha ağır vəziyyətdəyik. Üstəlik, su ehtiyatımızın 70 faizi ölkə sərhədlərindən kənar mənbələrdə formalaşır. Bu da qlobal quraqlıq və su böhranı zamanı çox ciddi təhlükə qarşısında qalacağımızı deməyə əsas verir. Əlbəttə, müvafiq tədbirlər görülməsə, vəziyyət mürəkkəbləşə bilər. Artıq çox az vaxt qalıb. Kür çayında su kritik həddə azalıb, kiçik çaylar quruyub gedir".

**E.Bayramlı, həmçinin problemləri sadaladı:** "Uzun illərdir, televiziya və mətbuatda həyəcan təbili çalırdıq, yaxında problem yaranacağını deyirdik. Lakin aidiyyəti orqanlardan reaksiya yox idi. Gərək ciddi problem yarandan sonra işə keçələr?!

Qabaqcadan problemin yaranmasının qarşısını almaq olmazmı?! Onlar bu işləri görməkdənsə, konkret problemlərin yaranacağını deyən və qabaqlayıcı tədbirlər görülməsinə çağıranları susdurmağa çalışırdılar. İndi cavab versinlər - milyardlarla pul hara, nəyə, necə xərclənib, niyə bu sahədəki problemlər həll olunmayıb?! Niyə kəndlərdə artezian qazdırmaq istəyən təsərrüfat sahiblərinə bürokratik manеələr yaradılıb və quyu qazılması üçün böyük qiymət qoyulub? Nə üçün dəniz kənarında su şirinləşdirici zavodlar tikilməyib? Niyə yaşayış məntəqələrinin və təsərrüfatların su təminatı üçün alternativ mənbələr və xətlər yaradılmayıb? Aidiyyəti təşkilatların rəhbər şəxsləri nə işlə məşğuldurlar? Həmçinin əhali sudan qənaətli istifadə etməlidir. Suvarmada yeni qənaətcil texniki qurğular tətbiq olunmalıdır. Bir çox ölkələrdə hətta yağış suyunu yığıb istifadə edirlər. Bu problemin həlli üçün innovativ texnologiyalar tətbiq olunmalıdır. Mümkün olan bütün yerüstü və yeraltı su mənbələrindən səmərəli istifadə edilməlidir".



"Nə üçün dəniz kənarında su şirinləşdirici zavodlar tikilməyib? Niyə yaşayış məntəqələrinin və təsərrüfatların su təminatı üçün alternativ mənbələr və xətlər yaradılmayıb?"

**Kənan Novruzov**



# Yarı xaricdədir, yarı Vətəndə...

## *Şou-biznes ulduzları övladlarını necə lazımdır bəsləyir*

Daim göz önündə olan, ictimaiyyət tərəfindən tanınan insanların ailələri, özəl həyatları maraq doğurub. Ən çox da incəsənət adamlarının taleləri, onların ailə üzvləri medianın gündəmində olub.

Bu səbəbdəndir ki, bəzən məşhurlar övladlarını mətbuatdan uzaq tuturlar. Onların fotolarının və haqlarında bilgilərin yayılmasını istəmirlər. Əksər halda isə elə uşaqların özləri populyarlıqdan qaçırlar. Lakin bir məşhurun övladı olduqları üçün istər-istəməz insanlar tərəfindən tanınırlar. Eyni zamanda adları zaman-zaman mediada hallanır. Bəs görəsən onlar hansı işlə məşğuldurlar? Valideynlərinin yolunu davam etdirirlərmi?

*Biz də siz oxucularımız üçün tanınan simaların övladlarının işlərini və təhsil aldıqları ixtisasları araşdırdıq.*

**Məsələn, Xalq artisti Flora Kərimovanın qızı Zümrüd Şəfiyeva müalicə işi üzrə təhsil alıb.** O, daha sonra İngiltərə vətəndaşlığını alaraq Siti London Universitetinin Psixologiya fakültəsində oxuyub.

**Əməkdar artist Aybəniz Haşımovanın qızı Aynişan Quliyeva bir vaxt müğənnilik edib.** O hətta "O səs Türkiyə" mahnı musabiqəsinə qatılıb. Aynişan indi blogerliklə məşğuldur. Həmçinin onun geyim mağazası da var.

**Aygün Kazımovanın qızı İlqarə də özü kimi müğənnidir.** O, "Sənsizəm mən", "Metro" kimi mahnıları izləyicilərinə təqdim edib.

**Xalq artisti Mələkxanım Əyyübovanın iki övladı var.** Sənətçinin oğlu biznesmendir, qızı Nəzrin isə rəssamdır. Nəzrin həm də blogerdir.

**Brilliant Dadaşovanın oğlu Cahad Hacıyev "Bahçeşehir" Universitetinin "Diplomatiya" fakültəsini bitirib.** O, həmçinin "İtest.az" platformasının qurucusudur.

**Nadir Qafarzadənin hər iki oğlu da xaricdə təhsil alıb.** Müğənninin kiçik oğlu Əziz yaxın günlərdə ifaçılıq etməyə başlayıb.

**Nura Suri üç oğul anasıdır.** İki övladı xaricdə oxuyub. Böyük oğlu Xosrov hazırda ABŞ-da yaşayır.

**Müğənni Rəqsanə İsmayılovanın qızı Aysun da onun yolunu davam etdirir. Artıq neçə ildir ki, müğənni kimi fəaliyyət göstərir.**

**Manaf Ağayevin iki oğlu, bir qızı var.** Onun övladları haqda mediada hansısa bir məlumat mövcud deyil.

**Roza Zərgərlinin övladlıq götürdüyü oğlu Corc Qafarov aktyordur.** Onun Corcdan başqa 3 övladı da var. Qızı Bənövşə zaman-zaman anası ilə birgə verilişlərdə qonaq olur və mahnı ifa edir.

**"Şərq"lə həmsöhbət olan tanınmış müğənni Afət Fərmanqızı oğlunun xaricdə təhsil aldığını söyləyib:** "Magistratura diplomunu alacaq. Bundan sonra doktorantura oxumağı düşünür. Həm həyatı, həm də təhsili ilə bağlı məsələlərdə nə addım atırsa, ona hörmətlə yanaşıram".

**Samirə Ərəblinski**



## Adını söyləmədi

### Vüsalə məşhur rejissorla sevgili olub

**Aparıcı Vüsalə Əlizadə məşhur rejissorla bir vaxt sevgili olduğunu açıqlayıb.**

"Şərq" xəbər verir ki, V.Əlizadə "Onun sirri" proqramında keçmiş sevgilisinin adını söyləməsə də, ayrılma səbəbindən danışıb: "Bir gün ev nömrəsinə zəng etdim, cavab verdi. Söylədim ki, necəsən? O isə başqa bir qızın adını çəkdi ki, filankəs sənsən? Nəsə demədən "odboy" verdim. Elnur Məmmədovun oxuduğu bir mahnı var: "Özünü mənim üçün dəfn etmiş oldun". Sözlərini həmin gecə yazmışam. Özünü mənim üçün dəfn etmiş oldu. Mənə görə bitdi".

**Samirə**

## "Şitxana!"

### Tolik Zaurun verilişini lağa qoydu



**Xəbər verdiyimiz kimi "Həmin Zaur" proqramında müğənni Rüfət Axundovun qol saatının qiyməti müzakirə olunub. Verilişin həmin hissəsi sosial şəbəkələrdə paylaşılıb.**

Prodüser Tarix Əliyev (Tolik) sözügedən məsələyə sərt reaksiya verib.

"Şərq"in məlumatına görə, o, səhifələrdən birində rəy yazaraq verilişə irad bildirib: "Danışmağa mövzu olmayanda bilmirlər nədən bəhs etsinlər. Bu da nədən irəli gəlir? Çünki fikirləri yalnız hansısa müğənniyə şirinlik etməkdir. Bəlkə toylara saldılar. Şitxana!".

**Samirə**

## "Şəhid analarının gözünün yaşı..."

### Könül Kərimovanın qısa şortda olan fotosuna irad tutdular



**Müğənni Könül Kərimova instaqramda növbəti dəfə paylaşım edib.**

"Şərq" xəbər verir ki, onun fotosu tənqid atəşinə tutulub. Buna səbəb sənətçinin qısa şortda fotosunu paylaşması olub. Ona izləyiciləri irad bildirib.

Məsələn, "aliyeva_.55" adlı istifadəçi "Şəhid analarının gözünün yaşı qurumadığı vaxtda belə şəkillər paylaşmağın yeri deyil. O igidlər şəhid olmasaydı, indi belə poz verib, foto çəkdirə bilməzdin. Gəlin, bir az sayğılı olaq. Ayıbdır" rəyini yazıb.

"Sevulyademir": "Fikirləşirəm ki, bizim xalq avroplaşamaq istəyir. Amma bundan çox uzağıq. Hələ də balaca çanta ilə çimərliyə gedilirmi?"

Bununla yanaşı sənətçini dəstəkləyənlər də olub.

"İbarauf": "Ay mənim gözəl millətim, axı biz niyə belə korlandıq? Bir Azərbaycan xanımı şəklini paylaşır. Nə gəldi yazırsınız. Hər insanın özünə görə mənliyi, şəxsiyyəti var. O sizə cavab yazmırsa, demək ki, başqasına artıq-əskik yazmaq lazım deyil".

**Samirə**

# "Eldən ayıb idi"



## *Şəhid nişanlısının tez-tələsik başqası ilə evlənməsi hiddət doğurub*

"Günlərdir şəhidin nişanlısının başqası ilə evlənməsi müzakirə olunur. Burda haqlı və haqsız tərəflər də var. Məsələn, İkinci Dünya müharibəsində xeyli sayda qadın dul qaldı. Onlardan qara yaylığı açmayan, qardaş yolu gözləyən, ömrünün sona qədər təkrar evlənməyən xanımlar var idi. Hətta dərddən siqaret belə çəkirdilər. Kimsə bir söz demirdi. Çünki dərdlərini anlayırdılar".

"Şərq" xəbər verir ki, bu sözləri instaqram hesabında paylaşdığı videoda şairə Nazilə Səfərli söyləyib. O, fikirlərinə bunları da əlavə edib: "Burda rezonans doğuran şəhidin ilinin çıxmamasıdır. Şəhid elin, xalqındır. Sən bir şəhid nişanlısı olduğun üçün qürur duya bilməmisən. Amma eldən ayıb idi. Bu üzdən gözləmək lazım idi. Şəhidlərimizin də nişanlıları, xanımları nə vaxtsa yenidən ailə qura bilər. Təbii ki, bu, istəyə bağlıdır. Həm dinimiz də buna icazə verir. Həddən artıq sevənlər isə uzun illər yaş üstə yaş gətirəcək, yenidən evlənməyəcək. Həmin qız isə heç düzgün etmədi. Üzündə elə ironiya, ismarış var, sanki böyük bir iş görmüsən. Atan-anan hara baxır?

Qapına ikinci elçi gələndə gedib birinci qayınanandan icazə, hallalıq almalı idin. Zatən şəhid anasının sinəsinə bir dağ basılıb, ikincini də sən basmamalı idin. İcazə alsan, bəlkə də halallıq verərdi.

Səninlə evlənən oğlan burada canı sağlam olanda, köhnə nişanlın gedib şəhid olub. Bu, ədalət deyil. Sən anlamasan da, o başa düşməli idi. Şəhid analarının sinəsinə dağ çəkmək olmaz. Onların ayağının tozu olmalıyıq. Sən neynirsən, hələ mahnı oxuyub video da çəkirsən. Hansı gününə?!".

Qeyd edək ki, şəhid Fərruz Hüseynov Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı olub. Sosial şəbəkələrdə şəhidimizin 4 illik nişanlısının yenidən ailə həyatı qurmağa hazırlaşması ilə bağlı xəbərlər yayılıb. Bu məsələ cəmiyyətdə qəzəb doğurub.

**Samirə**

# “Tosuncuğ"un son fırıldağı



## Yeni görüntülər ortaya çıxıb

(Əvvəli səh: 16-da)

Türkiyənin "Hürriyet" qəzetinin yazdığına görə, M.Aydının yanında işləyən A.Doğukan da bir müddət sonra ondan ayrılıb oxşar bir sayt yaradıb. Buna hiddətlənən M.Aydın "saytın eynisini o da yaratmış" dediyi A.Doğukanla bir parkda görüşüb.

Onu zorla avtomobilinə mindirərək Bodrumdakı evinə aparıb və təhdid edib. Təhdid anlarını da mobil telefonuyla görüntüyə alıb. Sonra A.Doğukandan saytın şifrələrini tələb edib və saytı bağlatdırıb. A.Doğukanın şikayəti ilə M.Aydın saxlanılıb, telefonundakı görüntülər də polisin əlinə keçib. Görüntülərdə ”Tosuncuğ”un A.Doğukana ”səni burda döyərəm, o zaman danışmağa başlayarsan. İnşəllah, şifrələri unutdun, burda yaxşıca kötək yeyərsən məndən. Bura gəlişini unutma, unutma, tamammı?! Sözümü dinləsən, qorxulacaq bir şey yoxdur. Biz adam yemirik. Gözəl-gözəl ”söhbət” edirik. Adam kimi yanımda çalış, gözəl işlər görəcəyik, dedimdimmi? Nəyinə yetmədi?” deyir. Xatırladaq ki, M.Aydına əvvəlcə məhkəmə tərəfindən 7 il azadlıqdan məhrumetmə cəzası verilib, lakin sonra 7 illik müddət 7 aya endirilib. Bu müddətdə də o, Ferma Bankı qurub insanlara fırıldaq gələrək milyonlar qazanıb. Onun tikirdiyi icazəsiz villa barəsində də sökmək qərarı çıxarılıb. ”Tosuncuğ”un yaşadığı Aydınlarda heç kəs onunla ünsiyyət qurmur, ələqə saxlamır artıq. M.Aydın illərdir doğma kəndinə getmir. M.Aydının əmisi kəndin muxtarıdır. Ferma Bankından zərər çəkənlər, ”Tosuncuq” tərəfindən pulları oğurlananlar muxtara təhdid mesajları göndərir. ”Tosuncuq” isə kənd camaatına ”pulunuzu ödəyəcəyəm” vədləri verir.

**Məlahət**

## “Çox xoşbəxtəm"

Lopez ilk dəfə Benlə olan sevgisindən danışdı



**Müğənni Cennifer Lopez yenidən eşq yaşamağa başladığı Hollivud ulduzu Ben Affleklə olan münasibəti haqda ilk dəfə müsahibə verib.**

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, sənətçi hazırda həyatının ən yaxşı dövrünü yaşadığı bildirib: ”Çox xoşbəxtəm. Bilirəm ki, insanlar mənimlə bağlı maraqlanırlar. İndi olduğu qədər heç vaxt özümü yaxşı hiss etməmişəm. Biganə olmadığım və mənə biganə yanaşmayan hamıya demək istəyirəm ki, özümü yaxşı vəziyyətə çatdırmışam”.

*Qeyd edək ki, Cey Lo bir neçə ay əvvəl nişanlısı Aleks Rodrigezdən ayrılıb. O, Ben Affleklə 2002-ci ildə görüşməyə başlamış və 2 illik münasibətdən sonra ayrılmışdılar. Onlar artıq övladlarını da biri-biri ilə tanış ediblər.*

## Məşhur aktrisa 9-cu yüksək mükafatını qazanıb



**Məşhur amerikalı aktrisa Kann Film Festivalında 9-cu yüksək mükafatını qazandıCodi Foster**

Amerikalı aktrisa Codi Foster Kann Film Festivalında ”Qızıl Palma budağı” fəxri mükafatını qazanıb.

”Report” ”TASS”a istinadən xəbər verir ki, aktrisaya bu mükafatı İspaniyalı rejissor Pedro Almodovar təqdim edib.

Festivalın baş direktoru Tyerri Fremo bildirib ki, bu Fosterin Kann Film Festivalında qazandığı 9-cu mükafatıdır.

## Leonardo da Vinçinin varisləri müəyyənləşdirilib

Dahi sənətkarın ailə şəcərəsi nəsilbənəsil üzə çıxarılıb



**Avropa İntibah dövrünün dahi simalarından rəssam və mühəndis Leonardo da Vinçinin bu gün azı 14 kişi varisinin yaşadığı müəyyənləşdirilib.**

”Report” xarici KİV-ə istinadən xəbər verir ki, incəsənət tarixi və Leonardonun həyatına dair araşdırmaçı olan Alessandro Vezzosi və Aqnese Sabato tərəfindən on ildən artıq aparılan tədqiqat nəticəsində dahi sənətkarın ailə şəcərəsi nəsilbənəsil üzə çıxarılıb.

Belə ki, 1452-ci ildə Florensiyanın yaxınlığındakı kiçik Ançiano şəhərində dünyaya göz açan Leonardo ömrü boyu evlənməyərək övlad sahibi olmasa da, ən azı 22 atabir qardaşından gələn nəsillər müasir dövrümüzədək davam edib. Aparılan tədqiqat zamanı Leonardonun atası Ser Piero da Vinçi istinad nöqtəsi olaraq seçilməklə əvvəlcə 1331-ci il təvəllüdlü əcdadı Miçele aşkarlanıb.

Tədqiqatçılara görə, Leonardo atabir qardaşı Domeniko ilə Vinçi ailəsinin 6-cı nəslinə mənsublarmış. Ailə şəcərəsinin azı 21 nəslini təyin etmək mümkün olub. Araşdırmalar zamanı Leonardonun DNT-si də təyin edilib ki, bunun əsasında onun erkən yaşlanması, solaxaylığı, qidalanması, səhhəti, irsi xəstəliklərə düçar olub-olmaması, habelə digər xüsusiyyətləri də tədqiq oluna bilər.

*Qeyd olunur ki, Leonardonun Vinçi soyadını daşıyan müasir varisləri arasında fermerlər, ofis əməkdaşları, döşəməçi, satıcı və bir nəfər rəssam da varmış.*

## Google istifadəçilərin danışıqlarını dinləyir



**India Today nəşriyyatının verdiyi məlumata əsasən Google təmsilçiləri şirkət əməkdaşlarının istifadəçilər ilə Google Assistant səsli köməkçisi arasında olan danışıqları dinlədiklərini Hindistan hökumətinə etiraf ediblər.**

Bundan əlavə olaraq son zamanlarda Google Assistant kortəbii olaraq danışıqların yazılması funksiyasını aktivləşdirir. Məlumata əsasən Google şirkəti Hindistanın İnformasiya Texnologiyaları üzrə Parlament Komitəsinə bildirib ki, ”Okay, Google” əmrindən sonra şirkət əməkdaşları istifadəçilər ilə səsli köməkçi arasında olan bəzi danışıqları dinləyirlər.

Faktiki olaraq bu, yeni bir xəbər deyil. Belə ki, 2019-cu ildə şirkət etiraf etmişdi ki, o, danışıqların 0.2%-ni dinləyir. Lakin həmin vaxtda şirkət bildirmişdi ki, o bunu servisin təkmilləşdirilməsi üçün edir və şirkət əməkdaşları danışıqların konfidensial məlumatları özündə əks etdirməyən az hissəsini dinləyirlər. Buna baxmayraq hansı məlumatın konfidensiallıq xarakteri daşıdığını təyin etməyi bacarın üsul barsində məlumat verilmir.

Google daha bir maraqlı faktı da etiraf edib. Smartfonda və smart səsgücləndiricilərdə səsli köməkçi hətta istifadəçinin ”Okay, Google” əmri olmadan da ətraf səsləri yaza bilir. Şirkət bildirib ki, bu, səsli köməkçinin əmrə bənzəyən hər hansısa bir sözü eşitdiyi zaman baş verir. Belə bir hal yaşandığı zaman istifadəçiyə ”Hey Google, that wasn't for you” cümləsini istifadə etmək məsləhət görülür. Bu halda səsli köməkçi son yazılmış danışığı siləcək.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet “**Şərq**”in kompyuter mərkəzində yığılır, səhifələnir və “**Azərbaycan**” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, “**Azərbaycan**” nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1206



# Dünyanın ən hündür boylu atı ölüb

"Heyvanın çəkisi 1 ton 136 kiloqram idi"



**2.1 metrlik hündürlükdə, dünyanın ən hündür boylu atı olaraq məşhurlamış 20 yaşlı Big Jake ölüb.**

"Şərq" Türkiyə mediasına istinadən bildirir ki, Big Jake ABŞ-ın Visconsin ştatındakı Smokey Hollow fermasında bəslənirdi. 2.1 metr hündürlüyündə olan atın çəkisi 1 ton 136 kiloqram idi. 20 yaşlı Big Jake 2010-cu ildə "Ginnesin Rekordlar Kitabı"na dünyanın ən uzun boylu atı olaraq salınıb. Uzun illər fermada ata qulluq etmiş Jerry Gilbert Big Jakenin ölümünü "ailəmiz üçün bu, faciəli bir hadisədir" deyə, açıqlayıb. Və deyib ki, Big Jake çox sakit bir at olub. Atın ölüm səbəbi isə hələ dəqiqləşməyib.

**Məlahət**

# Tablo 7 milyon 680 min avroya satılıb

Ailə əsərin belə dəyərli olduğunu bilmirdi



**Fransız rəssam Jan Onore Fraqonarın illərdir "əhəmiyyətsiz" olduğu düşünülən bir rəsm əsəri hərracda 7 milyon 680 min avroya satılıb.**

"Şərq" "Sabah.com"a istinadən bildirir ki, əsər "A Philosopher Reading" (Oxuyan filosof) adlanır. 1732-1806-cı illər arasında yaşayan Fraqonar, 18-ci əsrin əhəmiyyətli rəssamlarından biri sayılır. Rəsm əsəri 1768-1770-ci illər arasında çəkilib. Tablo Fransada yaşayan bir ailənin evində olub. Ailə bu günə qədər əsərin dəyəri barədə heç bir məlumata malik olmadığını söyləyib.

**Yeganə**

# Dənizi zibilliyə döndəriblər

"Konyaaltı sahilində sıxlıq müşahidə olunur"



**Koronavirusla əlaqədar müəyyən məhdudiyyətlərin aradan qalxmasından dərhal sonra Konyaaltı sahilində sıxlıq müşahidə olunur.**

Bu barədə "Şərq" "Habertürk"ə istinadən xəbər verir. Bildirilir ki, dalğıclar dənizin dibinin zibiliyə döndüyünü deyiblər. İstirahətə gələnlər içinə daş atılmış butulka, nəm salfet və digər tullantıları dənizə atıblar. Professor Mehmet Gökoğlu mövcud vəziyyətə görə təəssüfləndiyini deyib.

**Kənan**

# Peyvənd olunanlar...

Konsertlərə, filmlərə, futbol matçlarına rahat gedə biləcəklər



**Türkiyədə vaksinləşmə prosesi stimullaşdırılır. Bu barədə "Şərq" "Haberglobal"a istinadən xəbər verir.**

Bildirilir ki, peyvənd olunanlar konsertlərə, filmlərə, futbol matçlarına rahat gedə biləcəklər. Digərləri üçün isə bu imkan yaradılmayacaq.

**Kənan**





# "Tosuncuğ"un son fırıldağı

*Yeni görüntülər ortaya çıxıb*







**"Tosuncuq" ləqəbiylə tanınan Ferma Bank fırıldaqçısı Mehmet Aydının 5 il əvvəl, rəqib internet səhifəsi yaratmış bir əməkdaşını qaçırıb evində sorğuya çəkdiyini əsk etdirən görüntülər ortaya çıxıb.**

M.Aydın görüntülərdə əməkdaşına "sənə çox gözəl işlər quracağıq, deməmdimmi? Nəyinə yetmədi?" deyir. M.Aydının ata yurdu Giresunun Espiye əyalətində 5 il əvvəl bir dərə yatağında icazəsiz villa tikdirdiyi məlum olub. Təhlükəsizlik kameraları ilə müşahidə altında saxlanılan villada uzun müddət kimsənin yaşamadığı müəyyən edilib. Bursa 3-cü Əsliyə Cəza Məhkəməsi M.Aydının oynanmış iddia kuponu satan internet saytı qurduğu, onlayn alış-veriş həyata keçirdiyi məlum olub.

**(Davamı səh: 15-də)**

**Məlahət**

# Vergidən yayınma...

Trampın qızı saxtakarlıqda ittiham olunur



**ABŞ-ın keçmiş prezidenti Donald Trampın qızı İvanka Trampın ailə biznesində vergidən yayınma ilə məşğul olduğu iddia edilir.**

"Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, keçmiş prezident "Trump Organization" adlı ailə şirkətinə sahibdir.

Şirkətin baş maliyyə direktoru Allen Vayselberq bu yaxınlarda şirkətin adından sui-istifadə etdiyi üçün saxtakarlıqda ittiham olunub. Vayselberqdən sonra prezidentliyi dövründə Trampın müşaviri olan 39 yaşlı qızı İvankanın da vergidən yayınmasına dair iddialar ortaya çıxıb.

"New York Times" qəzetinin məlumatına görə, İvanka vergidən yayınmada Vayselberqin strategiyasından istifadə edib. Vayselberq özünü şirkətin işçisi kimi təqdim edərək vergi güzəştlərindən istifadə etməkdə günahlandırılır. İvanka isə atası ABŞ prezidenti vəzifəsində çalışdığı 2017-2021-ci illərdə Ağ Evdə prezidentin müşaviri vəzifəsində işləyib. Prezidentin qızının məsləhətçiliyə gətirildiyi zaman təqdim edilən 2017-ci il sənədində ortağı olduğu konsaltinq şirkətindən ümumilikdə 747.000 dollar ödəmə aldığı bildirilib. Bu pulun "Trump Organization" təşkilatının ABŞ-dakı otel layihələri üçün vergi güzəştləri istədiyi konsaltinq haqları ilə eyni olması diqqət çəkib.

**Yeganə**



# Ajdanı ələ saldılar

"Bir az da fotoşop etsə, uşaqlığına qayıdacaq"

**Türkiyəli müğənni Ajda Pekkan ötən gün konsert programı ilə çıxış edib.**

Axşam.az xəbər verir ki, aktrisanın gecədən yayımlanan fotoları pərəstişkarlarının diqqətini çəkib.

İzləyicilər "Bir az da fotoşop etsə, uşaqlığına qayıdacaq", "Ajdanın gənclik illəri belə bu qədər gözəl deyil", "75 yox, sanki 25 yaşındadır" kimi şərhlər yazıblar.